# *ŞEYTANLA  MÜSAHİBƏ*

**Rövşən Əhmədzadə**

**Moskva-2025**

بسم الله الرحمن الرحيم

*Bu kitabda əsası ayə və rəvayətlərdən götürülmüş şeytanın kimliyi haqqında müəyyən qədər məlumat verilmiş və onunla müsahibə yolu seçilmişdir.*

Kitabın adı ......................................... Şeytanla müsahibə
Müəllif:................................................... Əsğər Bəhməni
Tərcümə edən: .............. İlahiyyatçı Rövşən Əhmədzadə
Kompyüterə yığan:............................... Fərhad Kamalov
Nəşriyyat: ............................ “ООО Типография КЕМ”
Çap tarixi: ............................................................. 2025
Çap növbəsi: .................................................. Birinci
Tiraj: ............................................................... 1000

*BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ*

## ÖN SÖZ

Şeytan (İblis) bütün insanların qatı düşməni sayılır. O, elə bir kəsdir ki, Allah-təalaya altı min il ibadət etməsinə baxmayaraq, Onun əmrlərindən boyun qaçırdı və nəhayət, Yaradanın qarşısında cürət tapıb belə dedi:

رَبِّ بِمَآ أَغْوَيْتَنِي لأُزَيِّنَنَّ لَهُمْ فِي الأَرْضِ وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ

**Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də yer üzündə (bütün pis işləri) onlar (insanlar) üçün zinətləndirəcək və onların hamısını azdıracağam.**[1]

Yaxud Allahın izzətinə and içərək belə deyir:

فَبِعِزَّتِكَ لَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ

**İzzətinə and olsun ki, onların hamısını aldadıb doğru yoldan çıxaracağam.**[2]

Hələ də indiyə kimi yaşayan və hər insanın pusqusunda bir şeytan qoyan belə bir xətalı düşməndən gərək həmişə ehtiyat edək.

Bu təhlükəli düşmənlər insanın damarlarından axan qana daxil olacaq qədər yaxınlaşıb anbaan həyatımızı

---

[1] Hicr surəsi, ayə 39.

[2] Sad surəsi, ayə 82.

öz hidayəti altında saxlayırlar ki, fürsət tapan kimi zəhərli zərbələrini bizə endirsinlər.

Biz Allah-təalanın köməyi ilə hazırladığımız bu kiçik kitabda səy etmişik ki, şeytanın məharətli və aldadıcı siyasətini oxuculara daha da yaxşı tanıtdıraq. Əlbəttə ki, hər kəs gözə görünməyən və vəsvəsə edən hiyləgər düşmənini yaxşı tanıyarsa, onun toruna düşmək ehtimalı da azalar.

Həzrət Əli **(əleyhissalam)** buyurur: "Ağıllı insan o kəsdir ki, Allahını tanıyıb Ona itaət, düşmənini isə tanıyıb ona itaətsizlik etsin."[1]

Kitabın tərtibində böyük zəhməti olmuş Ufa şəhərində yaşayan mömin qardaşım Fərhada dərin minnətdarlığımı bildirirəm.

Allah-təala bu kiçik təlaşı qəbul edib savab yazarsa, həmin savabı mərhumə möminə nənəm Məşhədi Xədicə xanıma və əziz valideyinlərimə hədiyyə edirəm.

İlahi! Səni and veririk Əhli-beytin **(əleyhimussalam)** xatirinə, bizim həyaımızı və ölümümüzü Əhli-beytin **(əleyhimussalam)** həyatı və ölümü kimi qərar ver! Bizi bir an belə öz başımıza buraxma və aqiətimizi xeyrlilərdən et! Amin, ya Rabbəl aləmin.

*Mütərcimədən*

1446 hicri-qəməri
2025 miladi

---

[1] Əl-həyat, c.1, səh.132.

## *RAZILAŞMA MƏKTUBU*

وَقُل رَّبِّ أَعُوذُ بِكَ مِنْ هَمَزَاتِ الشَّيَاطِينِ

**Və de: Pərvərdigara! Şeytanların vəsvəsə və təhriklərindən Sənə sığınıram.**[1]

Hörmətli oxucuların nəzərinə çatdırırıq ki, şeytanların rəisi İblisin bizimlə müsahibəyə hazır olma xəbərini eşidəndə həyəcan hissi keçirdim. Həyəcanım yersiz deyildi. Çünki ən birinci gühan edən, ən birinci yolunu azan və azdıranla üzləşirdim.

Böyük Allahdan yardım istəyib Onun müqəddəs zatına pənah aparmaq və Ona təvəkül etməklə özümü bu mühüm işə hazırladım.

Nəhayət, İblislə qorxu içində baş verən birinci görüşümdə belə bir razılıq məktubu yazdıq:

"**Bu yazıya əsasən müsəlman müxbir və İblis arasında müsahibə baş verməsi qərarlaşdırıldı. Müsahibə zamanı qarşı tərəfə hörmətsizlik, əsəbləşmək olmamalı, iclası qarışdırmaq və qarşı tərəfin etiqadına töhmət vurmaqdan çəkinməlidirlər. Həmçinin İblis qəbul etdi ki, ona veriləcək sualların hamısına doğru və düzgün cavab verəcəkdir**."

*İmza: Müsəlman müxbir* *İmza: İblis*

---

[1] Muminun surəsi, ayə 97.

**Özünüzü təqdim edin!**

Mən cin tayfasındayam.[1] İnsandan çox-çox qabaq yaranmışam.[2] Mənim əsl adım Haris idi.[3] Amma sonralar insanlarla işim olduğuna görə mənə İblis deyildi və şeytan adı ilə məşhurlaşdım. Onu da deyim ki, mən şeytanların rəisi sayılıram. Adətən tüğyan edən və ziyan verən mövcudlara şeytan deyilir. Elə bu səbəbdən də keçmiş insanlar mikroblara şeytan deyirdilər.[4]

**Nə üçün adını dəyişib İblis oldun?**

Adımı özüm dəyişmədim. Allahın dərgahından qovulandan və Onun rəhmətindən məyus olub bütün körpüləri arxamca dağıdandan sonra məni İblis adlandırdılar.[5] Quranda mənim adım on bir dəfə təkrarlanıb.[6]

**Künyə və sifətlərin hansılardır?**

Müxtəlif sifətlərə malik olmuşam. O cümlədən, "əzazil" sifəti əziz mənasındadır. Belə ki, əzəmətli dövrüm və asiman mələklərinin arasında xüsusi

---

[1] «**Cinlərdən olan İblisdən başqa hamılıqla səcdə etdilər**.» (Kəhf surəsi, ayə 50). İnsanlardan da qabaq Allahın atəşdən yaratdığı məxluqlar cinlər hesab olunur. Onlar adətən cəmiyyətin az olduğu yerlərdə və bəzi dərələrdə yaşayırlar. Cinlər insanlar kimi maddi cisimdən ibarət olub yemək də yeyirlər. Lakin cisimləri lətif (yumşaq) olduğundan onların məxsus qidaları vardır. (Məarefe Quran, səh. 314).

[2] Hicr surəsi, ayə 27.

[3] Səfinətul-bihar, c. 1, səh. 368.

[4] Usulu-kafi, c. 6, səh. 385 və Təfsire nemune, c. 5, səh. 407.

[5] İblis "ümidsizlik" mənasını daşıyır. Əl-əyn, c. 1, səh. 93.

[6] Səfinətul-bihar, c. 1, səh. 368. Şeytan kəlməsi Quranda 68, şəyatin isə 18 dəfə təkrar olunmuşdur.

hörmətə malik olduğuma görə bu sifətə layiq görülmüşəm.[1] "Vəsvas" sifəti vəsvəsə edən, "racim" daşqalaq edilmiş və qovulmuş, "sağir" isə alçaq və zəlil mənasındadır.[2]

Həmçinin "xannəs" sifəti gizlənmək və geriyə çəkilmək mənasındadır. Mən bir şəxsin qəlbinə girmək istədikdə əgər o, Allahı yad etsə, tez qayıdıb gizlənirəm.[3]

Mənə verilən künyələr isə bunlardır: Əbu Mərrə, əbu Xəlaf, əbu Ləbini[4] əbu Kərdas, əbu Qətrə, əbu Dəcanə və əbul Cin.[5]

**Cin tayfasından olan bir məxluq mələklərin arasında yüksək məqama necə sahib oldu?**

Mən də digər cinlər kimi adi həyatımla məşğul idim. Günlərin bir günü bu tayfa arasında fitnə-fəsad töründi. Belə olduqda Allah-təala bizi məhv etmək üçün bir dəstə mələk göndərdi. Onlar öz məmuriyyətlərini layiqincə yerinə yetirdilər və mən əsir düşdüm. Mələklərə dedim ki, mənim bu fitnədə heç bir rolum olmayıb və mən möminlərdənəm. İndi ki, tayfamı öldürdünüz, onda məni də özünüzlə asimana aparın və mən də sizinlə birgə Allaha ibadət edim.[6]

---

[1] Elm nuru məcəlləsi, 5-ci dövrə, nömrə 4, səh. 78.
[2] Əraf surəsi, ayə 13.
[3] Əl-əyn, c. 4, səh. 199 və Təfsire nemune, c. 26, səh. 189.
[4] Ləbini onun qızıdır.
[5] Dairatul-məarif, c. 2, səh. 593.
[6] Şeytan dər kəminqah, səh. 43.

**Ailə qurmaq və övladların haqqında danışmağını istərdik.**

Evlənmək vaxtım çatanda Allah Öz qəzəbindən bir od parçası yaratdı və ondan da mənim üçün həyat yoldaşımı vücuda gətirdi.[1]

Övladlarım haqqında bunu deyə bilərəm ki, sizin kimi övlad və nəslə malikəm. Amma siz insanlar kimi deyil.[2] Belə ki, iki vasitə ilə olan "Ham" adlı övladım mənim yolumu davam etmədi. O, hələ uşaq ikən Nuhun vasitəsilə tövbə etdi və bütün Peyğmbərlərlə görüşdü.

Günlərin birində İslam Peyğəmbərinin yanına gəlib ona Quran öyrətməsini istədi. Peyğəmbər də onu Əlinin yanına göndərdi. Ham Əli haqqında soruşduqda Peyğəmbər cavab verdi ki, o mənim vəsimdir. Bu zaman Ham dedi: Onun adını Tövratda və İncildə görmüşəm. Məbada ümmətin Ondan üz dəndərsin. Əvvəlki ümmətlər öz vəsilərindən üz döndərdikləri üçün məhv oldular. Sonra Ham getdi və "ləylətul-hərir"ə kimi qayıtmadı.[3]

«**İsraf edənlər şeytanların qardaşlarıdır**»[4] ayəsində deyilən həmin kəslər qohumlarının və

---

[1] Təfsiru-burhan, c. 2, Hicr surəsinin təfsirində.

[2] Tərcumətul-mizan, c. 8, səh. 57.

[3] Buharul-ənvar, c. 6, səh. 83. Ləylətul-hərir axırıncı gecə mənasındadır. Aylarla İmam Əli **(ələyhissalam)** ilə Müaviyə arasında gedən döyüşün adı Siffeyndir. Belə ki, bu döyüşün son gecəsində Müaviyənin sonu yaxınlaşırdı və onun qoşunu məğlubiyyətə uğramaq üzrə idi. Onlar hiylə işlətməklə Quran ayələrini nizələrə sancıb İmamın **(ələyhissalam)** ordusundan olan bir qrup avam müsəlmanları aldatdılar. Nəhayət, həmin gecənin səhərisi "həkəmiyyət" məsələsi meydana gəldi.

[4] İsra surəsi, ayə 27.

miskinlərin haqqını tapdalayanlardır. Onlar halal yolla qazandıqları mallarını belə düzgün yolda istifadə etmədiklərinə görə mənimlə qardaşlıq vasitəsi qururlar.

**Mələklərldən danışdın, bəs onlarla necə əlaqə qurmusan?**

Asimana qədəm qoyandan sonra mələklərlə daha da yaxından tanış oldum. Hər an ibadətlərimi artırırdım. İş o yerə çatdı ki, Cəbrayıl, Mikayıl və İsrafil mənim ibadətimdən heyrətə gəlib bir-birinə belə dedilər: "Allah, ibadətə olan eşqi, əlaqəni və gücü bu bəndəsinə əta etdiyi qədər heç kimə əta etməyib."[1]

Bu ibadətlərin təsirindən mələklərin arasında izzət və hörmətim artmağa başladı. Lakin Allahın dərgahından qovulandan sonra o üç mələyin lənət və nifrətinə səbəb olan birinci kəs mən oldum.

Bir gün mələklər lövhədə müşahidə etdilər ki, mələklərin birinə Allahın qəzəbi tutubdur. Uca məqama malik olduğuma görə onlar belə aqibətə düçar olmasınlar deyə məndən xahiş etdilər ki, dua edim. Mən də onlar üçün dua etdim, lakin özümü unutdum.[2]

Pis və nalayiq iş görən insanların yığıncağında mənim əmrimlə onlardan on qat çox şeytan toplaşıb işlərini təkrarladığı kimi möminlərin də yığıncağında mələklər toplaşır.[3] Bəzən mühüm bir məsələ üstündə

---

[1] Şeytan dər kəminqah, səh. 45.
[2] Əl-mizan, c. 8, səh. 57.
[3] Usulu-kafi, c. 2, s. 499.

mənim tərəfdarlarımla mələklər arasında çaxnaşma baş verir. Bu elə bir həddə çatır ki, şeytanların başçılığını öz öhdəmə almağa məcbur oluram. Bu çaxnaşma müxtəlif səbəblərə görə başlaya bilər. O cümlədən bir mömininin bu zikri

لا حول و لا قوة الا بالله العلی العظیم و صلی الله علی محمد و آله الطیبین

(*Lə həvlə və lə quvvətə illə billəhil əliyyil əzim. Və salləllahu ələ Muhəmmədin və ali Muhəmməd*)[1] deməsi ilə döyüş başlanır. Belə ki, bu vuruşda bizə dəyən zərbələr və yaralar kafirlərin əməl və sözləri ilə sağalır. Biz belə şəxslərdən gözəl bir minik kimi istifadə edirik.[2]

**Dostların haqqında söz ortaya gətirdin, bu barədə nə demək istərdin?**

Əvvəldə bunu deyim ki, dostlarım və ordumun çoxunu cinlər və insanlardan bir hissəsi təşkil edir.[3] Onlar birlikdə "hizbuş-şəytan" (şeytan partiyası) adı altında fəaliyyət göstəririlər. Bunlardan bəziləri zaman ötdükcə yavaş-yavaş mənim təsirim altına düşdükdən sonra bu qrupa üzv oldular.[4] Belə ki, mənim köməkçilərim bəzən "əsgər"[5], bəzən də "dəstə"[6] adı ilə tanınırlar. Partiya və ordumda olan

---

[1] Yəni Əzəmətli və Uca Allahdan başqa heç bir güc və qüvvət yoxdur. Və ey Allahım, Muhəmməd və Onun pak ailəsinə rəhmət göndər.
[2] Həmin mənbə.
[3] Tərcumətul-mizan, c. 8, səh. 57.
[4] Mucadələ surəsi, ayə 19.
[5] Şuəra surəsi, ayə 95.
[6] Əraf surəsi, ayə 27.

kəslər bəzən "şeytanın dostları və köməkçiləri"[1], bəzən də "şeytanların qardaşları"[2] adlanır. Mənim qoşunum əməliyyatların gec və tez yerinə yetirilməsinə görə piyada və süvarilərə bölünür.[3]

**Allahın dərgahından qovulmağına səbəb nə oldu?**

Mələklərlə birlikdə ibadətə məşğul idim. Allahdan bu dəhşətli xəbəri «**Həqiqətən Mən yer üzündə bir canişin (Allahın oradakı nümayəndəsi) qoyacağam**»[4] eşidəndə yer üzünə gəlib torpağa dedim: "Allah istəyir ki, səndən uca məqamlı bir mövcud yaratsın. Amma axırda o, Allahın əmrindən boyun qaçıracaq. Sən bu işin qarşısını almağa çalış! Ona görə də vədə verilmiş gündə ardıcıl olaraq Cəbrayıl, Mikayıl və İsrafil torpaqdan gəlib aparmaq istərkən, yer nalə çəkib onları Allaha and verdi ki, bu işi görməsinlər. Nəhayət, bu üç mələk əliboş geri qayıtdılar. Sonda Əzrail bu məmuriyyəti yerinə yetirdi. Lakin mənə ümid verən bir şeyin şahidi oldum. O da Adəmin qarnının boş olması idi. Çünki o, bu boş yeri yeməklə doldurmalı idi. Elə buna görə də onun yoldan azmasına fürsət yaradırdı.[5]

Bəli, Adəm iyi pis olan quru gildən yaradıldı.[6] Elə ki, Allah ona Öz ruhundan üfürüb bütün mələklərə,

---

[1] Ənam suarəsi, ayə 121.
[2] İsra surəsi, ayə 27.
[3] Tərcumətul-mizan, c. 8, səh. 57.
[4] Bəqərə surəsi, ayə 30.
[5] Şeytan dər kəminqah, səh. 47.
[6] Hicr surəsi, ayə 28.

mən də olmaq şərtilə Adəmə səcdə[1] etməyi istədikdə onlar sorğu-sualsız bu əmrə tabe oldular, lakin mən bu işi yerinə yetirməyə razı olmadım.[2]

**Fərmandan boyun qaçırdığna görə Allah-təalanın sənə qarşı əks təsiri nə oldu?**

Allah fasiləsiz olaraq əmr etdi ki, Onun dərgahından xaric olum və[3] məni Qiyamətə kimi lənətlədi.[4] Mən də bunun müqabilində dedim ki, Qiyamətə kimi Sənin bəndələrini haqq yoldan azdıracağam.[5] Allah da «**Cəhənnəmi sizin hamınızla dolduracağam**»[6] - deyə buyurdu.

**Nə üçün Allaha səcdə etmədin**?[7]

Axı bilirsən, mən atəşdən, Adəm isə torpaqdan yaradılmışıq və aydındır ki, atəş oddan üstündür.[8] Məhz bu səbəbdən də qiyas[9] (müqayisə) etdim və Allaha cürətlə dedim ki, Sənin gildən yaratdığın bəşərə heç vaxt səcdə etmərəm.[10] Mən maddi cəhətdən özümü Adəmlə müqayisə etdim və atəşin bir çox cəhətdən torpaqdan üstünlüyünü anladım. Lakin torpağın mənəvi cəhətini fikirləşmək belə istəmədim.

---

[1] Hicr surəsi, ayə 30.
[2] Hicr surəsi, ayə 33.
[3] Hicr surəsi, ayə 34.
[4] Hicr surəsi, ayə 35.
[5] Hicr surəsi, ayə 39.
[6] Əraf surəsi, ayə 18.
[7] Hicr surəsi, ayə 32.
[8] Əraf surəsi, ayə 12.
[9] Nurus-səqaləyn, c. 2, səh. 6.
[10] Hicr surəsi, ayə 33.

Sizin rəhbərlərdən[1] biri belə buyurmuşdur: "Hər kəs dinin işlərini qiyasla ölçərsə, Allah Qiyamət günü onu İblislə birlikdə məhşur edər."[2]

Bəli, mən Allaha qarşı üsyan və küfr etdim. Bu da üç əsas kökdən ibarətdir: Hərislik, təkəbbür və paxıllıq. Allahın əmrindən boyun qaçırmağıma səbəb də məhz təkəbbür oldu.[3]

**Sənin Allahla danışığın hansı formadadır? Vəhydir, yoxsa başqa bir şey?**

Xeyr, vəhy deyil. Vəhy yalnız Peyğəmbərlərə aiddir. Mən isə Allah ilə "daxili ilham"la söhbət edirəm. Məryəm, yaxud Musanın anası Allahla həmin vasitə ilə söhbət etdiyi kimi mən də o cür söhbət edirəm.[4]

**Baxmayaraq ki, biz atəşin torpaqdan üstün omasını qəbul etmirik, amma Adəmə səcdə etmək Allahın əmri idi. Sənə elə gəlmir ki, bunun batini səbəbi ola bilər?**

Bəlkə də ola bilər. Amma bu aqibətimin ən mühüm amili mənim həsədim oldu. Hal-hazırda da əgər insanlar Allahın razılığına görə bir iş görmək istəsələr, mən yenə də onlara həsəd gözü ilə baxaram. Məsələn, "namazı əvvəl vaxtında qılmaq"[5] və bu kimi işlərə yaman paxıllığım tutur. Məhz mənim həsadət

---

[1] İmam Sadiq **(əleyhissalam)**.
[2] Təfsirul-minar, c. 8, səh. 331.
[3] Təfsire nemune, c. 6, səh. 107.
[4] Təfsire nemune, c. 6, səh. 105.
[5] Əl-məvaziul ədədiyyə, səh. 304.

və təkəbbürüm Allaha küfr etməyimə səbəb oldu.[1] Buna görə də Allahın elm və hikmətini inkar etməli oldum.[2]

**Sənin varlığın insana zərər yetirir. Yəni zərrə qədər də xeyirin yoxdur**?

Mənim yaranışımın əsas məqsədi və fəlsəfəsi siz insanların təkamülü üçündür. Ən güclü sərkərdələr o kəslərdir ki, böyük müharibələrdə düşmənlərlə vuruşub onun döyüş taktikasını öyrənir və nəhayət, ona qələbə çalır. Deməli, Allahın ən üstün bəndələri o kəslərdir ki, mənimlə həmişə vuruşur və qələbə çalmağa çalışır. Sizin də mənimlə vuruşub qələbə çalmağınız təkamülə doğru addımlamanızdır və mənim vücudumun xeyiri də burdan məlum olur.

Müasir dövrün alimləri mikrobun varlığı haqqında belə nəticəyə gəliblər ki, əgər bədəndə zərərverici mikroblar olmasaydı, onda insanda süstləşmə əmələ gələr və onun boyu səksən santimetrdən uca olmazdı. Sizlər bu dünyada imtahandasınız. Kamilliyə çatmaq üçün isə mənə qələbə çalmaq zəruridir.

Əlbəttə, bunu da deyim ki, mən olmasaydım belə insanların nəfsi istəkləri onları özünə tabe olmağa vadar edər və hal-hazırda bu işi etməkdədir. Lakin mənim yaranışım həvayi-nəfsə dost və köməkçi oldu.[3]

---

[1] Bəqərə surəsi, ayə 34.

[2] Təfsire nemune, c. 6, səh. 106.

[3] Təfsire nemune, c. 9, səh. 343-349.

**Aydındır ki, boyun qaçırmağın Allaha xalis ibadət etməməyinin nişanəsidir.**[1] **Belə ki, bu əməlin Haqqın dərgahından xaric olmağınla nəticələndi. Bu hadisənin xırdalıqlarını necə izah edə bilərsən?**

Allah Öz dərgahından qovub Qiyamətə kimi lənətlədikdən sonra məni alçaq və zəlil adlandırdı.[2] Elə bu zaman hər şeyi itirdiyimi hiss etdim və Allahın rəhmətindən məyus və ümidsiz oldum. Adəm və onun övladlarından intiqam almaq fikrinə düşdüm. Buna görə də Allahdan diri qalmaq möhlətini istədim[3] ki, hətta Bərzəx aləmində belə öz proqramımı icra edim.[4] Lakin Allah Qiyamətə qədər yaşamağımı qəbul etməyib müəyyən vaxta qədər mənə möhlət verdi.[5] Bu müəyyən vaxt dünya tamamlanmamışdan qabaq da ola bilər və artıq insanlar ibadətdə elə bir həddə yetişərlər ki, daha mənim hiyləm onlara təsir etməz.[6]

**Dedin ki, intiqam üçün möhlət almısan. Bu proqramın necə idi**?

Ümumilikdə mənim proqramım Adəmi, Həvvanı və onların dünyadakı övladlarını aldatmaq və azdırmaqdan ibarətdir. Allah mənim diri qalmağıma razılıq verdikdə ürəyim sakitləşdi və Ona dedim: “Mən insanların gözündə hər şeyi gözəlləşdirib onları azdıracağam[7] və Sənin haqq yolunda pusquda

---

[1] Əl-ənvarul Numaniyyə, c. 2, səh. 218.
[2] Əraf surəsi, ayə 13.
[3] Hicr surəsi, ayə 36-38.
[4] Tərcumətul-mizan, Əraf surəsinin 14 və 15-ci ayələrin təfsirində.
[5] Hicr surəsi, ayə 38.
[6] Tərcumətul-mizan, c. 12, səh. 236-237.
[7] Hicr surəsi, ayə 39.

duracağam.[1] Onlara öndən, arxadan, sağdan və soldan yaxınlaşacağam.”[2]

Bu günə qədər mən bu siyasətcil işimdə müvəffəqiyyət qazanmışam. Allah Öz Quranında belə deyir: «**Və həqiqətən, İblisin onlar barəsində zənni düz çıxdı. Yalnız möminlərdən ibarət bir dəstə istisna olmaqla hamısı ona tabe oldular**.»[3]

Bu ona görədir ki, mən insanların daxili, xarici və son fikirlərindən xəbərdaram.[4] Bu intiqamın ən yüksək həddi Kərbəlada idi. Belə ki, Adəm övladlarının çoxunu ən üstün şəxsin[5] müqabilində qərar verdim və hər nə dedim yerinə yetirdilər.[6] Hər bir halda mən pusqudayam, insanları güdür və bir an belə onlardan qafil deyiləm. İntiqama da həmişə hazıram.

**Həmin pusqular hansı şəkildədir və onlar harda qurulub**?

Əslində bu pusqular insanları qəflətə salıb dəqiq zərbə vurmaq üçündür. İnsan istər yuxuda, istərsə də ayıq olanda biz həmişə onu güdürük.[7] Elə bu nəzərdən mən bir neçə yerdə pusqu düzəltmişəm. Onlardan bəziləri bunlardır:

1-**Həsəd**: Uzun illər ibadət etməyimə baxmayaraq hətta ən birinci mən ona mürtəkib olmuşam. Belə ki,

---

[1] Əraf surəsi, ayə 16.
[2] Əraf surəsi, ayə 17.
[3] Səba surəsi, ayə 20.
[4] Tərcumətul-mizan, c. 8, səh. 56.
[5] İmam Hüseyn **(ələyhissalam)**.
[6] Rəyahinuş-şəriəh, c. 3, səh. 65.
[7] Səfinətul-bihar, c. 1, səh. 368.

Qabili həmin tələyə saldım və o da qardaşı Habili həsəd üzündən öldürdü.[1]

2-**Təkəbbür**: Həsəddən sonra özümü hamıdan üstün görmək istədim. Çünki təkəbbür vasitəsilə lazımi proqram qurub insanları rahat ovlaya bilirəm.

3-**Qəzəb**: Böyüklərin birindən belə eşitmişəm: "Qəzəbdən uzaqlaşın, çünki qəzəb İblisin qoşunlarındandır."[2] Mənə elə gəlir ki, bu tələnin vasitəsilə öz hədəfimə tez çatıram. Qəzəb qülləsinin son həddində olan insan, bizim vəsvəsəmizlə çox böyük işlərə əl atır. Hətta bu məsələ barəsində belə deyirlər: "Hər kəs öz qəzəbinə qələbə çalsa, şeytana qələbə çalmışdır."[3]

4-**Özünü bəyənmək**: Özünü bəyənmək ən yaxşı fürsətlərdəndir. Belə ki, onun vasitəsilə yaxşı əməlləri aradan aparmaq olur.[4]

5-**Ümidsizlik**: Ümdisiz olan bir kəs hər şeyə laqeyd olur və hədəfsiz yanaşır. Bu da vəsvəsə ilə zərbəmizi ona endirmək üçün gözəl bir fürsətdir. Həqiqətən də ümidsizlik yerlərindən biri də duaların qəbul olmamasıdır ki, insan vəsvəsənin təsiri altına düşür.[5]

---

[1] Habil və Qabil Adəmin **(əleyhissalam)** övladlarıdır. Qabilin qurbanı Allah-təala tərəfindən qəbul oldu, lakin Habilin qurbanı isə qəbul olmadı. Buna görə də Habil həsəd üzündən öz qardaşını öldürdü.

[2] Nəhcul-bəlağə, məktub 69.

[3] Ğurərul-hikəm və durrul-kəlam, c. 2, səh. 274.

[4] Nəhcul-bəlağə, məktub 52.

[5] Usulu-kafi, c. 4, s. 242.

6-**Şəkk və şübhə**: Həmişə şəkk içində olan kəs mənim tələmə düşmüş və qoşunumun ayaqları altında tapdalanmışdır.[1]

7-**Özünə güvənmək**: Mənim ən böyük tələ qurduğum məkan özünə güvənməkdir.[2] Ümumiyyətlə, mən müəyyən olunmuş dörd möhkəm tələ nəzərdə tutmuşam; ön, arxa, sağ və sol. Elə qovulduğum gündən Allaha dedim ki, Sənin düz yolunun başında, onların pusqusunda oturacağam. Sonra önlərindən, arxalarından, sağ və sol tərəflərindən onların yanına gələcəyəm."[3]

**Sənin işin aldatmaqdan ibarətdir və hər bir iş üçün də məharət lazımıdr. Aldatmaq üçün hansı məharətə maliksən**?

Yaxşısı budur ki, bu sualın cavabında öz siyasi üsullarıma işarə edim:

1-**Tələ qurub insanların qəflətindən istifadə etmək**:[4] Dünyanın aldadıcı gözəlliyi və həvəsbazlıq bəni Adəmin qəflətə düşməsi üçün münasib şərait yaradır.[5]

2-**Tədrici addım**: İnsanın fitrəti pak olduğu üçün birdən-birə aşkar günaha düşə bilmir, buna görə də aldadıcı işlər addım-addım olmalıdır. Belə ki, bu yolda bir neçə addım nəzərdə tutmuşam. Birinci addım günaha batanlarla dostluğumdur. İkincisi,

---

[1] Nəhcul-bəlağə, məktub 158.
[2] Mucəmu-əlfazi ğurərul-hikəm və durrul-kəlam, səh. 1120.
[3] Əraf surəsi, ayə 16-17.
[4] Əraf surəsi, ayə 16.
[5] Nəhcul-bəlağə, xütbə 158.

onların məclislərində iştirak etməkdir. Üçüncüsü, onların düşüncələrində günah fikirləri yaratmaqdır. Dördüncüsü, şəkk-şübhəyə düşsünlər deyə, onlara vəsvəsə etməkdir. Beşincisi, kiçik günahlara sövq etmək. Altıncısı isə, onları ən pis və şər işlərə vadar etməkdir.[1]

Mən əvvəldə öz işimi insanlara asan göstərir, sonra da tədricən onları çətin və dar yollara çəkirəm. Nəhayət, bu siyasətimlə onların dinini yavaş-yavaş əllərindən alıb hamısını bir-birindən ayırıram.[2]

3-**Birlikdə olan hücum**: Bəzən işimin alınması və insanlara qəflətdən böyük zərbə endirmək üçün piyada və süvaridən olan ordumu çağırmağa məcburam.[3]

4-**Axtarış və davam**: Mən siz insanları Cəhənnəmin dibinə çatdırmaq üçün bir an belə dayanmadan çalışır və ümidsizliyə qapıldığım zaman başqa yollar axtarıb ona əl tapıram.

**Bizim sənin işlərindən xəbərdar olmağımıza baxmayaraq, istərdim bu barədə daha da ətraflı söhbət edəsən**!

Bütün işlərimi nizama salmaq üçün öz övladlarımdan iyirmi nəfərlik qrup təşkil etmişəm. Belə ki, onların hər birinin özünəməxsus işi vardır. Məsələn, “Həfaf”[4] adlı övladım səhra və biyabanlarda insanları vahiməyə salıb qorxudur və onlara əziyyət

---

[1] Təfsire nemune, c. 14, səh. 412.
[2] Təfsire nemune, c. 14, səh. 121.
[3] Nəhcul-bəlağə, xütbə 10 və 22.
[4] هفاف

verir. “Zəlnəbur”[1] adlı övladım isə dükan və bazarlara nəzarət edir. “Əbyəz”[2] Peyğəmbərləri vəsvəsə etməyə məmurdur. “Əuur”[3] isə kişi və qadınların şəhvətini təhrik etməklə məşğuldur. “Məzhəb”[4] adlı övladım özünü müxtəlif insanların cildinə salır ki, camaatı aldatsın. Əlbəttə ki, Peyğəmbərlər buna aid deyil.[5] “Dəhar”[6] adlı övladım isə gecələr möminlərə əziyyət verməklə məşğuldur. Bəzən də onların möhtəlim[7] olmasına gətirib çıxarır.[8] Özümün başçılığı və köməkçilərimin nəzarəti altında görülən əsas mühüm işləri sadalamaq istəsəm, bunları deyə bilərəm:

1-**Zinətləndirmək**: İlahi dərgahdan qovulandan sonra Allaha dedim: «**Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də yer üzündə (bütün pis işləri) onlar (insanlar) üçün zinətləndirəcək və onların hamısını azdıracağam**.»[9]

Məqsədimə çatmaq üçün gördüyüm işlərdən birincisi, dünyadakı vasitələrə gözəllik verməkdir.[10] İkincisi, batindəki bütpərəstlik kimi təfəkkürləri bəzəmək[11] və sonuncusu isə pis rəftarları yaxşı cilvələndirməkdən ibarətdir.

---

[1] زلنبور
[2] أبيض
[3] أعور
[4] مذهب
[5] Biharul-ənvar, c. 6, səh. 307.
[6] دهار
[7] Bədəndən spermanın çıxması və şəxsin cünub olması.
[8] Səfinətul-bihar, c. 1, səh. 99-100.
[9] Hicr surəsi, ayə 39.
[10] Ali-İmran surəsi, ayə 14.
[11] Nisa surəsi, ayə 117.

2-**Pis vəsvəsələri ötürmək**: İnsanlar yuxuda və ayıqlıqda bunlarla üzləşirlər.

3-**Qorxutmaq**: İnsanları kasıbçılıqla qorxutmaq ən böyük işlərimdən sayılır.[1]

4-**Yalan vədə**: İnsanları aldadandan sonra onları vədəmə əməl etməyəcəyimə xəbərdarlıq edirəm.[2] Məxsusən, yalan vədələrlə günbəgün onların tövbələrini ölümləri çatana qədər geriyə salıram.[3] Yalan vədələr və çirkin işlər tövbə ilə yuyulur.[4] Tövbə onları pak, mənim proqramlarımı isə puç edir. Lakin mən bu yalan vədələrimlə onları qəflətə salıb Cəhənnəmin uçurumuna kimi aparıram.

5-**Təfriqə**: Möminlərin arasında ayrılıq salandan sonra sevincimin hədi-hüdudu olmur.[5]

6-**Xeyir işlərdən çəkindirmək**: Hər hansı bir xeyir işi görmək istəyəni yolundan uzaqlaşdırmağa çalışıram. Lakin bu əməli tələsik görən şəxsə vəsvəsə etməyə fürsətim çatmır.[6]

7-**Malda şəriklik**: Biz, insanların öz mallarını haram yolla əldə etmələri üçün var qüvvəmizlə çalışırıq, buna nail olduqda onların malına şərik oluruq.[7]

---

[1] Bəqərə surəsi, ayə 268.
[2] İbrahim surəsi, ayə 22.
[3] Nəhcul-bəlağə, xütbə 69.
[4] Ali-İmran surəsi, ayə 135.
[5] Usulu-kafi, c. 2, səh. 345.
[6] Usulu-kafi, c. 2, səh. 143.
[7] Tərcumətul-mizan, c. 13, səh. 201.

8-**Övladda şəriklik**: Haram yolla (zina ilə) dünyaya gələn və ya halalzadə olub düzgün tərbiyə olunmayan uşaqlar şərik olmağımıza bir sənəddirlər.[1]

9-**Güdmək**: İnsanların düşüncələrini azdırmaq üçün qeybi xəbərləri bilməliyik. Ona görə də qədimdən bu məsələ bizim proqramımızdadır. Bu iş üçün özümüzü asimana və mələkut aləminə çatdırıb mələklər arasındakı xəbərlərə gizli surətdə qulaq asıb, yer üzündəki kahinlərə[2] çatdırmağımız zəruridir.[3]Amma təəssüflər olsun ki, göydən yağan daşlar (meteroit) bizi izləyir və bəzən mənim cəsarətli dostlarım səmaya yaxınlaşanda deşici daşlar onları yandırır. Bu daşqalaq, axırıncı Peyğəmbərin besətindən sonra daha da şiddətləndi. Biz məcburuq ki, asimanda eşitdiklərimizi çox sayda yalanlar qatıb kahinlərə yedizdirək. Onlar da bu yalanlarla camaatı aldatsınlar. Ümumiyyətlə, bu fəaliyyətlər camaatın düzgün yolu seçə bilməməsi üçün gecə-gündüz davam edir. Hərçənd işimizi genişləndirmək üçün Ramazan ayında əlimiz bağlıdır.[4] Proqramın dəqiq olması üçün hər bir insana, hətta Peyğəmbərlərə bir şeytan təyin etmişəm ki, onları vəsvəsə etsinlər.[5]

---

[1] Həmin mənbə.

[2] Kahinlər həmişə iddia edirdilər ki, qeybi xəbərləri və gələcəkdə baş verən hadisələri bilirlər.

[3] Təfsire nemune, c. 11, səh. 51 və c. 23, səh. 458.

[4] Şəbaniyyə xütbəsindən.

[5] Ənam surəsi, ayə 112 və Biharul-ənvar, c. 64, səh. 40.

**Hər bir iş üçün ləvazimat lazımdır. Sən və dostların aldatmaq üçün hansı ləvazimatdan istifadə edirsiniz**?

Allahın mənə dediyi bu sözə diqqət et: «**Və onlardan bacardığın kəsi öz səsinlə (günaha tərəf) təhrik et və (onları itaətsizliklərə tərəf qovmaq üçün ordundakı) öz süvarilərin və piyadaların ilə onların üzərinə fəryad qopar! Belə ki, onların mallarına və övladlarına şərik ol və (hər bir vacibin tərk olunmasında və hər bir haramın yerinə yetirilməsində) onlara vəd ver**!»[1]

Bu xəbər mənim ən mühüm iş ləvazimatımı bəyan edir. Bunlardan biri, hər zamana münasib olan təbliğatdır. Başqa birisi iqtisadi ləvazimatdır ki, malda şərik olub proqramlar üçün şərait yaradıram. Üçüncü ləvazimat isə hərbi qüvvələrimdir. Onlar süvari və piyada ordumdakı casuslardır ki, öz sürətli əməlləri ilə hücum zəminəsini yaradırlar.[2] Bunların hamısı öz ixtiyarımdadır.

Amma öz ləvazimatlarımı çox cüzi surətdə sizə oxşar bəyan etmək istəsəm, onda gərək belə deyim: Dünya ilə dostluq mənim torum, naməhrəm qadınla dostluq mənim qılıncım, şərabxorluq mənim tələm, pul ilə dostluq isə mənim oxumdur.[3] Mənim və dostlarımın ən böyük pusqusu iki şeydir: **Qəzəb və fəsad törədən qadınlar**.[4]

---

[1] İsra surəsi, ayə 64.

[2] Təfsire nemune, c. 12, səh. 184-186 və Ğurərul-hikəm və durrul-kəlam, c. 1, səh.156.

[3] Biharul-ənvar, c. 73, səh. 140.

[4] Mucəmu-əlfazi ğurərul-hikəm və durrul-kəlam, səh. 819.

**Burda mühüm bir sual meydana çıxır. Sən qəbul etdin ki, işin aldatmaqdır. Görəsən, bu işin məsuliyyəti kimin öhdəsinədir? Yəni təqsir səndədir, yoxsa insanlarda**?

Əslində mənim dəvətimi qəbul edən, elə əvvəlcədən şəraiti yaratmış olur. İnsanların boynuna qoyduğum xəta və günahlar birinci dəfə deyil, əksinə onlar özləri azğınlığa düşənlərdir. Sonradan zəminəsi olduğu üçün dəvətimə ləbbeyk deyirlər. Bu əsasa görə də insanlar mənim tərəfimdən heç bir məcburiyyət olmadan mənə təslim olurlar. Onların, özlərini "**günaha məcbur olmaq**" kimi tanıtdırmağa haqları yoxdur, çünki bu şəraiti öz ixtiyarları ilə yaradıblar.

Allah məni qovanda belə dedi: «**Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol seçməkdə həmişə ixtiyara malikdirlər), tamamilə sənə tabe olan azğınlardan başqa**!»[1]

Buna görə də insanların icazəsi olmadan onların ruhuna və qəlbinə daxil ola bilmərik.[2] Yaxşı olar ki, bir nöqtəyə işarə edim: İnsanlar bizə görə üç qrupa ayrılır: Birinci qrup Peyğəmbərlər və Allahın övliyalarıdır. Vəsvəsələrimizin onlara təsiri olmadığı üçün vaxtımızı çox sərf etmirik və onların əlindən rahatıq. İkinci qrup möminlərdir. Belə ki, vəsvəsəmiz onlara təsir göstərir, amma sonra tez tövbə edərək işimizi çətinləşdirir və bizi zəhmətə salırlar. Üçüncü

---

[1] Hicr surəsi, ayə 42.

[2] Təfsire nemune, c. 3, səh. 138.

qrup isə bizə təslim və ixtiyarımızda olanlardır. Belələrini hara istəsək, çəkib aparırıq.[1]

Birinci qrup haqqında elə birinci gündən Allaha dedim ki, ixlaslı bəndələrindən başqa, qalanlarını azdıracağam.[2] Bu qrupun uca məqamlara çatmasının əsl səbəbi mənə itaət etməməklərinə görədir.

Bir daha deyirəm, mənim işim yalnız dəvətdir, nəinki məcbur etmək. Birinci qızıl və gümüş pullar əridiləndə, onları gözümə və qəlbimə qoyub dedim: "İndi ki, Adəm övladı sizi sevir, artıq onların bütpərəst olmamaqlarından qorxmuram. Sizi sevirlərsə, mənə kifayət edər.[3] Bu mənim müvəffəqiyyətim üçün bir zəminədir.

Görəsən, Allah niyə buyurub: «**Ey iman gətirənlər, Şeytanın addımlarına tabe olmayın**!»[4]

Çünki insana seçim və ixtiyar qüdrəti verib. Sizin birinci İmamınız deyib: "Camaatın ən ağıllısı, Pərvərdigarını tanıyıb ona itaət və düşmənini tanıyıb ona itaətsizlik edəndir.[5]

İndi de görək, öz səyi nəticəsində Allahını tanıyıb Onun dəvətini qəbul edən şəxs mənim dəvətimə üz gətirərmi? Bir zaman şeyx Ənsariyə vəsvəsə etdim ki, yanındakı əmanətə xəyanət etsin. Hətta onu bazara kimi apardım ki, onu xərcləsin, amma birdən fikrini dəyişdi və mən ona ziyan yetirə bilmədim.[6] Ona görə

---

[1] Biharul-ənvar, c. 60, səh. 265.
[2] Hicr surəsi, ayə 40.
[3] Mizanul-hikmət, c. 9, səh. 271.
[4] Nur surəsi, ayə 21.
[5] Əl-Həyat, c. 1, səh. 132.
[6] Qəlbe Qoran, səh.190.

də fəqih olan bir din aliminin ölümü digər möminlərin ölümündən mənim üçün daha sevimlidir.[1] Çünki onların Allaha olan mərifətləri mənim vəsvəsələrimi zəiflədib işdən salırlar.

Mən yolunu azanların azğınlıqları qarşısındakı məsuliyyəti qəbul etmirəm. Çünki mən yalnız vəsvəsə edirəm və bəndələrin üzərində heç bir hökmranlıq etməyə ixtiyarım yoxdur. Hərçənd, mənimlə möhkəm olan və daimi oturub-duranların üzərində malikiyyət iddiası edirəm.[2]

**Bütün bu azğınlıqlarla Qiyamətdə nə edəcəksən? Azğınların cavabını necə verəcəksən**?

Qiyamətdə bütün işlər, yəni Cənnət və Cəhənnəm əhli seçilib qurtarandan sonra Cəhənnəm əhlini atəşə tərəf aparanda mən onların halına gülüb deyəcəyəm: "Ey bədbəxtlər! Allahın verdiyi doğru və haqq vədəni qəbul etmədiniz, amma mənim yalan vədələrimə inandınız. Bu gün siz məni yox, özünüzü danlayın! Çünki nə siz mənim dadıma çatarsınız və nə mən sizin dadınıza çataram. Mən elə əvvəldən sizin əqidənizə inanmırdım."[3]

Onlar atəşdən xilas olsunlar deyə, öz azğınlıqlarını mənim boynuma qoymağa çalışacaqlar. Lakin onlara deyəcəyəm: "Mənim sizi dəvət etməkdən başqa heç bir hökmranlığım yox idi və siz də mənim dəvətimi qəbul etdiniz. Elə isə özünüzü məzəmmət edin!"[4]

---

[1] Səfinətul-bihar, c. 1, بلس maddəsi.
[2] Nəhl surəsi, ayə 100.
[3] İbrahim surəsi, ayə 22.
[4] İbrahim surəsi, ayə 22.

Mən elə burda elan edirəm ki, Qiyamət günü mənə və yoldaşlarıma itaət edən şəxslərə nifrət edəcəyəm və onlardan uzaqlaşacağam.[1] İndi onlarla dostluq edirəm, amma Qiyamətdə işlər dostluqla irəli getməz və mən o zaman özümü kənara çəkəcəyəm.

**Hansı işlərinə görə fəxr edirsən**?

Yer üzündə baş verən fitnə-fəsadlar mənim iftixarımdır. Mən Habilin qatili, Nuhun gəmisinə minən, Salehin dəvəsini öldürən, İbrahimə qurulan atəşi alovlandıran, Yəhyanın ölüm planını cızan, Musanın müqabilində baş verən cadunu hərəkətə gətirən vəsitəçiyəm. Mən Samirinin buzovunu düzəldən, Zəkəriyanı öldürən mişarın sahibi, Əbrəhənin qoşununa yol göstərən, Ühüd və Hüneyn müharibəsində Peyğəmbəri qətlə yetirmək üçün planı hazırlayan, Aişənin dəvəsi,[2] Əli ilə vuruşmaq üçün Siffeyn ordusunu quran, Səqifədə macəra axtaran, münafiqlərin başçısıyam.

Allah Lut qövmünü keçmişdəkilərin canişini olaraq ən üstün qövm qərar verməsinə baxmayaraq, mən onları ləvata üz gətirməklərinə səbəb oldum.[3]

Həmçinin mən cürət tapıb Allah ilə müxalifət edənlərin,[4] Allaha yalan nisbət verənlərin,[5] musiqi və

---

[1] İbrahim surəsi, ayə 22.

[2] Ömərin xilafəti dövründə Salman Farsi Aişənin dəvəsinə daş atıb deyirdi: O, cinlərdəndir və adı da Əsgər ibni Kənandır. Sonralar Aişə bu dəvəni İmam Əli **(əleyhissalam)** ilə müharibə etmək üçün aldı. (Məcməun-nurəyn, 10-cu məclis, səh.125).

[3] Əl-Məhasin, c. 1, səh. 110.

[4] Hicr surəsi, ayə 31.

[5] Əraf surəsi, ayə 20.

ğinaya üz gətirənlərin[1] və həsədini aşkar edənlərin birincisiyəm.[2] Əlbəttə ki, Cəbrail, Mikail və İsrafilin lənətinə düçar olan birinci kəsəm.[3]

Şeytanın buynuzu haqqında eşitmisənmi? Sizin Peyğəmbəriniz belə deyib: "Şeytanın buynuzu "Nəcd"dən[4] üzə çıxar. Həmin buynuzun nə olduğunu bilirsinizmi? Bu "vəhhabi" firqəsidir ki, öz qiyamını Nəcddən başladı. Mənim buynuzum olan bu firqə sizin dininiz və bütün müsəlmanlar üçün çox təhlükəlidir.[5] Yerin və göylərin bəlalarının çoxu, həmçinin bəni-Adəmin başına gələn müsibətlər mənim və dostlarımın fitnələri sayəsində baş verir. Biz bununla fəxr edirik. Bu iftixar mənə kifayətdir. Çünki Allah Öz bəndələrinə belə deyir: «**(Şeytan) sizə düşmən olduqları halda Mənim yerimə onu və onun övladlarını özünüzə dost, yardımçı və başçı qəbul edirsiniz**?»[6]

**İndi isə həvayi-nəfs haqqında söhbət edək. Səninlə həvayi-nəfs arasında nə kimi qarşılıqlı münasibət vardır**?

Məni yerə çırpan və məni İblis və Şeytan edən yalnız və yalnız nəfsi istəklərimdir. Həmin gündən onun qüdrətini tanıdım və ondan səmərəli istifadə

[1] Biharul-ənvar, c. 60, səh. 199.
[2] Biharul-ənvar, c. 60, səh. 222.
[3] Biharul-ənvar, c. 60, səh. 278.
[4] Ərəbistanın şəhərlərindən biri.
[5] Vəhhabi firqələri və şübhələrə cavab, səh. 230.
[6] Kəhf surəsi, ayə 50.

etmək qərarına gəldim. İmamınız demişkən: "Nəfsin istəklərinə uymaq qəflət yarada bilər."[1]

Qəglətdə olan insanı öz toruma salmaq münasib bir fürsətdir. Buna əsasən də bu çılğın nəfsi özümə ən yaxın yoldaş gördüm və onu öz orduma sərkərdə seçdim.[2] Hər kəs öz nəfsinin istəklərini ayaq altına qoya bilsə, mənə qələbə çalmış olur. Lakin həvəslərinin ardınca gedənə isə mən qələbə çalıram.[3]

Həqiqətdə insanın ən mühüm mübarizəsi öz nəfsi ilədir. Həvayi-nəfs və mən insanın ən böyük düşmənləriyik.[4] O xaricdən, mən isə batindən öz işimizi görürük və insanları aldatmaqla məşğuluq. Və əlbəttə ki, əgər mən olmasaydım belə, o öz işini görərdi, amma indi bir-birimizin köməyi və onun öndə olması ilə azdırmaq işini irəli aparırıq.[5]

Bu yolda müvəffəqiyyətlərimiz çox olub. Bu sualın sonunda dostluq, ya düşmənçilik nəsihəti etmək qəsdim olmadan deyirəm ki, insanın nəfsinin pisliyini onun dünya ilə qarışıb ardınca getmək kimi tanıtdırıram.[6]

**Dünya ilə əlaqən nədir? Ümumiyyətlə, dünya haqqında nəzərin nədir**?

Əvvəl gərək dünyanı iki hissəyə ayıraq: Birincisi, halal dünyadır ki, Axirətə çatmaq üçün bir yoldur.[7]

---

[1] Nəhcul-bəlağə, xütbə 42.
[2] Mucəmu-əlfazi ğurərul-hikəm və durrul-kəlam, səh. 571.
[3] Həmin mənbə.
[4] Mucəmu əlfazil Quran, səh. 1119.
[5] Təfsire nemune, c. 19, səh. 347.
[6] Mucəmu əlfazil Quran, səh. 1118.
[7] Nəhcul-bəlağə, hikmət 463.

Bu müvəqqəti və keçici yolda insanlar Axirət azuqəsi yığmaqla məşğuldurlar.[1]

Sizin böyükləriniz bu dünyanı belə tərif ediblər: "Dünya, Allah dostlarının səcdəgahı, mələklərin namaz qıldığı məkan, vəhyin endiyi yer və Allah dostlarının ticarət yeridir ki, onun vasitəsilə Cənnətə nail olurlar."[2] Mənim belə dünya ilə heç bir əlaqəm yoxdur.

İkinci dünya isə haram dünyadır. Onu sevirəm və o, mənim torumdur.[3] Ona görə də belə dünyaya əlaqəm çoxdur və onu həmişə gücləndirirəm. Haram dünyanın müxtəlif aldadıcı vasitələri olduğu üçün[4] mənimlə eyni yoldadır. Fərqimiz bundadır ki, mən vəsvəsə ilə, dünya isə gözəl və cəzbedici görünüşü ilə insanları aldadırıq. Belə ki, dünya öz zahiri görünüşünü insanlara nişan verir, mən isə insanları ona tərəf itələyirəm.

Dünya, camaatı vəsvəsə etməkdə mənə kömək edir, mən də müştəri toplayıb dünyanın başına yığılmasına kömək edirəm. Aydındır ki, bunlardan bir dəstəsi qanın içində boğulacaq, başqa dəstəsi yaralanacaq, digər dəstəsi barmaqlarını dişləyəcək, digər bir dəstəsi fikrə dalacaq, başqa bir dəstəsi isə öz keçmişindən peşiman olacaqlar. Çünki dünya onları qəflətə salmış və ömürlərini hədərə vermişlər.[5]

---

[1] Nəhcul-bəlağə, xütbə 132.
[2] Nəhcul-bəlağə, hikmət 131.
[3] Ğurərul-hikəm və durrul-kəlam, c. 1, səh. 156.
[4] Nəhcul-bəlağə, hikmət 103.
[5] Nəhcul-bəlağə, xütbə 191.

Dünya dörd tərəfi olan bir otağa bənzəyir. Birinci üzü bəlalara, ikinci üzü müsibətlərə, üçüncü üzü nəfsi istəklərə və dördüncüsü isə mənə tərəfdir. Belə otağın qapısı yalnız mənim üzümə açılır.[1]

**Məlum oldu ki, siz üçünüz, yəni sən, həvayi-nəfs və dünya, azğınlıq üçbucağı yaratmısız. Bu o deməkdir ki, Cəhənnəm yolunu hamarlamısınız. Bizim nəzərimizə görə bu namərdlikdir. Elə deyilmi**?

Əlbəttə ki, belə deyil. Bu sözlər yalnız bir bəhanədir. İnsanların bizimlə mübarizəyə hövsələləri olmadığı üçün öz sözlərinə düzəliş vermək istəyirlər. Bu, bizim üçün sevindirici haldır. Ümumiyyətlə, Allah insanlara üç cür müdafiə vasitəsi nişan vermişdir:

1. **Ağıl**: Ağılın həvayi-nəfsin caynağında əsir olma ehtimalı vardır. Belə olduqda, hakimliyi ağıl deyil, nəfsi istəklər icra edir.[2]

2. **Vəhy**: Peyğəmbərlər və Onların canişinləri bu əmri yerinə yetirənlərdir. Ağıl daxili, Allahın elçiləri isə xarici Peyğəmbər ünvanı ilə azğın yolları tanımaqda insanlara yardım edir və onları həmin yoldan uzaqlaşdırırlar.

3. **Mələklər**: Adəm, Allahdan möhlət istədiyimi və övladlarının təhlükəli düşmənin əlinə düşdüyünü anladıqda, ağladı. Allah buyurdu: “Mən hər bir şeytanın qarşısında və onun vəsvəsələri müqabilində

---

[1] Nəhcul-bəlağə, məktub 3.
[2] Nəhcul-bəlağə, hikmət 211.

övladlarını yaxşılığa dəvət edən bir mələk yaradaram."[1]

Gördüyünüz kimi insanlar tək deyillər. Həqiqətdə insan, bir tərəfdən şeytan, həvayi-nəfs və dünya, digər tərəfdən isə ağıl, vəhy və mələk arasındadır. Biz insanı Cəhənnəmə, onlar isə Cənnətə tərəf çəkirlər. İnsan isə Allahın ona verdiyi ixtiyar və seçim qüdrəti ilə öz yolunu təyin edir. Nə biz və nə də onlar insanı məcbur etməyə qadir deyilik.[2]

Diqqət olunası mətləblərdən biri, Allahın bağışlamaq[3] qüdrətidir. Belə ki, bir günah bir, amma bir yaxşı iş isə on bərabər hesablanır.[4] Adəm Allahdan – "İblisə verdiyinin müqabilində mənə və övladlarıma nə verirsən?" - soruşduqda, Allah belə cavab verdi: "Hər günaha bir, hər yaxşılığa isə on bərabər əta edərəm. Son nəfəsinizə kimi tövbə möhləti verərəm və həmçinin çox bağışlayıram." [5]

Allahın həmişə Öz bəndələrinin köməyində durması az bir şey deyil. O belə deyir: «**Əgər Allahın sizə lütf və mərhəməti olmasaydı, sizdən heç biriniz heç vaxt (pis əqidə, əxlaq və əməldən) pak olmazdı**.»[6]

Bəşərin əlinin altında olan bütün bu imkanlar Cənnəti qazanması deməkdir, lakin onların "**qəflət**" adında olan sifəti bizim ümidimizi daha da artırır.

---

[1] Biharul-ənvar, c. 60, səh. 275.
[2] İnsan surəsi, ayə 3.
[3] Zumər surəsi, ayə 53.
[4] Ənam surəsi, ayə 160.
[5] Biharul-ənvar, c. 60, səh. 275.
[6] Nur surəsi, ayə 21.

**Özünə layiq bildiyin müvəffəqiyyətlərlə bərabər ümidsizlik, narahatçılıq, yazıqlıq və çarəsizlik hissi keçirmisənmi**?

Bütün bəni-Adəmi azdırmaq mənim arzum olduğu üçün təbiidir ki, onların hidayəti nigarançılığıma və narahatlığıma səbəb olur. Amma mühüm və tarixi misallardan bir neçəsinin adını çəkmək istəsəm, deməliyəm ki, birinci ümidsizliyim Allah dərgahından qovulduğum vaxta aiddir. Belə ki, iki yüz il ağlayan Adəmin tövbəsinin qəbul olması, Yusifin Züleyxanın əlindən qaçması, İslam Peyğəmbərinin Əlini Öz canişini təyin etməsi, səcdədən üz çevirərkən mələklərin lənətinə düçar olmağım, İslam Peyğəmbərinin nübuvvətə yetişməsi və tövbə[1] ayəsinin nazil olması məni ən çox narahat edən amillər idi. Bu ayə nazil olanda "Sur" dağının başına çıxıb çarə fikirləşmək üçün şeytanların böyüklərini bir yerə yığdım. Bu yığıncaqda belə nəticəyə gəldik: "İnsanlara vədə verib onları ümidvar edək ki, sonradan tövbə edə bilsinlər." Amma məqsədimiz budur ki, yavaş-yavaş tövbəni onlara unutduraq.[2]

Allahın Hüseyn ibni Əlinin qəbrini ziyarət edənlərə uca məqam əta etməsini eşidəndə isə nigarançılığım daha da artdı.[3]

Bir sıra cüzi və gündəlik işlər də var ki, tək bir şəxsi aldatmaqla məşğul olan şeytanların narahatçılığına səbəb olur; Məsələn, subay bir şəxsin evləndiyi zaman onun şeytanı fəryad çəkib "**vaveyla**"

---

[1] Ali-İmran surəsi, ayə 135.
[2] Biharul-ənvar, c. 60, səh. 197.
[3] Şeytan dər kəminqah, səh. 194.

deyir, çünki o, dininin üçdə iki hissəsinə zəmanət verir.[1] Yaxud, iki nəfərin barışmasından onların şeytanlarının bədəni titrəyir və narahatlıqdan fəryad çəkirlər.[2] Buna baxmayaraq inkişafımız gözə çarpandır və mən, demək olar ki, razıyam.

**İnsanları azdırmaqda geniş fəaliyyətlərini nəzərə almaqla bəzilərinin zehnində belə sual meydana gələ bilər ki, Allah sənin gələcəkdən agah olmağını bildiyi halda nə üçün sənin vücuda gəlməyinin qarşısını almadı**?

Mənim yaradılışım insanların yaradılışı kimi pak və eybsiz idi. Elə buna görə də illərlə mələklərin çərgəsində idim.[3] Əslində mənim vücudum insanların imtahan qarşısında səadət, yaxud bədbəxt əhli olmalarını ayırd edə bilər.[4] Aləmdə vücuda gəlmək imkanı olan hər bir şey haqqın feyzindən bəhrələnmək üçün Allahın hikmətinə görə vücuda gəlməlidir.

**Yaxşı, belə olduqda Allah nə üçün sənə səcdə etməyi əmr etdi**?

Allahın işi yaratdıqlarını kamilliyə çatdırmaqdan ibarətdir. İstər bu bəndəçilikdə, istərsə də tüğyanda təkmilləşsin. Əgər mən, həmin səcdəni yerinə yetirsəydim, onda bəndəçilik kamilləşərdi. Məhz

---

[1] Biharul-ənvar, c. 100, səh. 221.
[2] Usulu-kafi, c. 4, səh. 45.
[3] Təfsire nemune, c. 6, səh. 111.
[4] Tərcumətul-mizan, c. 12, səh. 24.

səcdə etmədiyim üçün pisliklərim tüğyan etmiş və kamala çatmışdır.[1]

**Allahın müqəddəs zatına itaətsizlikdən sonra niyə Ondan möhlət aldın**?

Asimanlara yol tapdığım və mələklərin sırasına daxil olduğum zaman bir lövhə ilə üzləşdim. Həmin lövhədə "Mən heç kəsin əməlini zay etmirəm"[2] - yazıldığını gördüm. Öz-özümə fikirləşdim ki, əgər ibadət etsəm, bunun müqabilində Allahdan bir şey istəyə bilərəm.[3] Altı min il ibadət etdim və dörd min ilini iki rükətli namazda keçirtdim.[4] Allahın dərgahından qovulmaq fərmanı verildikdə[5] Allahdan ibadətimin muzdunu istədim və dedim ki, muzdum mənim sağ qalmağım olsun və O da mənə müəyyən vaxta qədər möhlət verdi.[6] Möhlətdən əlavə Allahdan başqa şeyləri də istədim:

1-İnsanların qan damarlarından axıb onlara təsir qoymaq.

2-Hər bir insanın müqabilində mənə iki övlad nəsib etmək.

3-Hər bir formaya düşüb insanları görə bilməyimi və onların məni görməməklərini istədim. Allah da bunları qəbul etdi.[7]

---

[1] Tərcumətul-mizan, c. 8, Əraf surəsinin təfsirində.
[2] Ali-İmran surəsi, ayə 195.
[3] Şeytan dər kəminqah, səh. 44.
[4] Nəhcul-bəlağə, xütbə 192.
[5] Hicr surəsi, ayə 34.
[6] Hicr surəsi, ayə 36.
[7] Biharul-ənvar, c. 60, səh. 274.

**Eşitdiyimizə görə insanların ölüm zamanında öz dostlarını onların sorağına göndərirsən. Bu həssas anlarda məqsədin nədir**?

Bəli, insanların ölüm zamanı şeytanları onların sorağına göndərirəm. Çünki hər bir mömin insan can verən zaman öz əqidəsini qorumağa çalışır. Bizim bu axır anlarda qəsdimiz vəsvəsələrimizlə onu öz dini inanclarına qarşı şəkkə salmaqdır.[1] Biz istəyirik ki, o kəlmeyi şəhadəti deməsin.[2] Xüsusilə, əsas həssaslığımız Əhli-beytə etiqadı olanların üzərindədir. Biz səy edirik ki, onları bu etiqaddan uzaqlaşdıraq. Amma təəssüflər olsun ki, bu yolda çox uduzmuşuq.[3] Bu uduzma özünü "ölüyə təlqin" verilən zaman biruzə verir.[4] Bəzən həmin vaxt ölüm mələyi ilə vuruşuruq. Çünki o şəxsin öz namazlarına əhəmiyyət verməsi, vəzifəmizi yerinə yetirməyimizə mane olur.[5]

**Dedin ki, insanların gözündən gizlisiniz və onları yaxşı görürsünüz. Sualım budur ki, insanların formasında zahir ola bilirsiniz**?

Əvvəldə dediyim kimi Allahdan istədiyim mükafatlardan biri də müxtəlif formalara düşə bilməyim idi.[6] Bədr döyüşündə Suraqət ibn Cəşəmin[1]

---

[1] Səfinətul-bihar, c. 1, səh. 99.
[2] Səfinətul-bihar, c. 1, səh. 371.
[3] Səfinətul-bihar, c. 6, səh. 173.
[4] Ölünü dəfn edərkən bir sıra dinin maarifindən ona təlqin olunması müstəhəbdir. Meyyitə və qəbrə oxunan bu ibarətlər bir növ dünyadan köçmüş insanın Allah-təalaya və Əhli-beytə **(ələyhimussalam)** olan etirafıdır.
[5] Vəsailuş-şiə, c. 3, səh. 79.
[6] Əraf surəsi, ayə 27.

surətinə girib kafirlərə dedim: “Bu gün heç kim sizə qalib gələ bilməz.” Beləliklə, bacardığım qədər onları döyüşə həvəsləndirdim. Amma çox keçmədi ki, müsəlmanların köməyinə gələn çoxlu mələkləri gördüm və qaçaraq müşriklərə belə dedim: “Mənim gördüyümü siz görmürsünüz.”[2]

Bundan əlavə mən “Əqəbə”[3] beyətində Mənbət ibn Həccacın surətinə girib müşrikləri xəbərdar etmək üçün fəryad çəkdim. Amma Peyğəmbər camaata ürək-dirək verib dedi: “Qorxmayın! Onun səsini heç kəs eşitməz.”

Həmçinin “Darun-Nədvə”də[4] müşriklərin Peyğəmbərə qurduqları sui-qəsd planı vaxtı mən özümü Nəcd əhlindən olan bir qoca kişinin simasına saldım ki, onlara məsləhət verim.[5]

Yenə də Peyğəmbərin rehlətindən sonra Müğeyrət ibn Şöbənin cildinə girib qışqırdım: “Hökumətin Bəni-Haşimə çatmasına yol verməyin! Özünüz hökuməti ələ alıb padşahlar kimi onu övladlarınıza irs qoyun!”[6]

Bundan əlavə mən, insan surətində zahir olub bir çox Peyğəmbərlərlə söhbət etmişəm.

---

[1] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

[2] Əraf surəsi, ayə 27.

[3] Həzrət Peyğəmbərin **(salləllahu ələyhi və alihi və səlləm)** besətindən 13 il sonra Mədinə şəhərindən olan 73 nəfər Minada “Əqəbə” deyilən məkanda gizli surətdə İslam Perğəmbəri **(salləllahu ələyhi və alihi və səlləm)** ilə görüşüb beyət etdilər. Sonradan bu beyət O Həzrətin hicrət etməsinə bir səbəb oldu.

[4] Qureyş başçılarının Məkkənin fəthindən qabaq həmin məkanda yığışıb məşvərət etdikləri bir ev.

[5] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

[6] Biharul-ənvar, c. 60, səh. 233.

**Tarixdə sənin Peyğəmbərlərlə (ələyhimussalam) görüşüb onlarla söhbətinə rast gəlirik. Əgər razısansa, bu barədə danış**!

Bəli, doğrudur. Birinci Əyyubun saysız şükrünə işarə etmək istəyirəm. Onun şükrü mənim paxıllığıma səbəb oldu və buna görə də Allaha dedim: "Əyyub Sənə yox, verdiyin mal və nemətlərə görə şükr edir. Əgər Ondan bu nemətləri geri alsan, daha şükür etməz."

Bu zaman Allahdan Əyyubun malına əl qatmağı istədim. Sonra mən və dostlarım Onun malını aradan apardıq. Lakin bu, Əyyubun şükrünü daha da artırdı. Sonra biz, onun mal-qarasını məhv etdik, amma yenə də şükrünü artırdı. Bu dəfə evi on iki övladının başına uçurdub onları öldürdük. Lakin Əyyub belə dedi: "İlahi, şükr olsun ki, ruzi verib, ruzi aldın."[1]

Ondan sonra özünü bəlaya salmaq istədik və elə bir iş gördük ki, bədənini yara basdı. Şəhərdə qala bilmədiyi üçün qırağa çıxdı. Neçə gündən sonra yanına gedib dedim: "Hansı günahına görə Allah səni bu bəlaya düçar etdi? Əyyub, onu Allahın rəhmətindən naümid etmək istədiyimizi bildiyi üçün aramlıq və razı halda belə dedi: Heç bir günah."[2]

Bu mübarizədə uduzmağıma etiraf edirəm.

Bir gün Musa Tur dağına gedəndə özümü ona çatdırıb dedim: "İstəyirəm, sənə bir neçə nəsihət öyrədim."

---

[1] Həyatul-qulub, c. 1, səh. 201.
[2] Həyatul-qulub, c. 1, səh. 203.

Musa mənə qarşı pis gümanda olduğu üçün əvvəl istəyimi qəbul etmədi. Cəbrail Musadan sözlərimə qulaq asmasını istədi və mən dedim: “Birinci nəsihətim budur ki, sədəqə verməkdə tələs, yoxsa səni peşiman edərəm. İkincisi, naməhrəm qadınla xəlvətdə qalma, çünki üçüncü şəxs mənəm. Üçüncü nəsihətim budur ki, heç vaxt qəzəblənmə, çünki mənim ən böyük arzum Adəm övladının qəzəblənməsidir. Dördüncüsü, harama yaxınlaşma ki, mən səni onun içinə ataram.”

Bundan sonra ona aldadıcı sözlər demək istədim, lakin Cəbrail Musanı agah edib dedi: “Artıq sözlərinə qulaq asma!”

Cəbrailin bu işindən narahat oldum.[1] Çünki məqsədimə çatmamış bir neçə faydalı nəsihəti havayı faş etdim.

Günlərin birində başımda rəngli papaq Musa ilə rastlaşdıım. Soruşdu: “Bu nədir başında? Cavab verdim: Onunla adamların qəlbini oğurlayıram. Dedi: Hansı günahla insana hakim olursan? Dedim: Özündən razı olsun, yaxşı işlərini böyük, günahlarını isə kiçik saysın.”[2]

Musa ilə bir acı xatirəm də budur ki, yanına gəlib dedim: “Allah yanında şəfaətimi et ki, məni bağışlasın.” Musa istəyimi Allaha yetirdi. Allah da bu xəbəri göndərdi: “İblisə de ki, Adəmin qəbrinin yanına gedib ona səcdə etsin!” Mən də həmişəki

---

[1] Şeytan dər kəminqah, səh. 255.
[2] Biharul-ənvar, c. 60, səh. 259.

təkəbbürümü biruzə verib dedim: “Diri olanda səcdə etmədim, ölüsünə isə heç vaxt səcdə etmərəm.”[1]

Peyğəmbərlər arasında hamıdan çox Yəhya ilə ünsiyyətdə idim. Görüşünə gəldiyim gün mənə dedi: “Ey əbu Mərrə, torlarını bəyan et!”

Səhərisi gün mən onun yanına gəlib torlarımı bir-bir açıqladım və ən böyük torum olan qadınların olduğunu bildirdim. Axırda ona dedim: “Səndə olan bir xasiyyət məni ümidvar edir. Yeməkdən doyandan sonra bir neçə tikə artıq yeyirsən və bu da məni ümidvar edir.”

Ey kaş, bu sözü deməzdim. Çünki Yəhya cavabımda belə dedi: “And içirəm ki, doyunca yemək yeməyim.” Mən bu sözdən çox narahat oldum və dedim: “Mən də əhd edirəm ki, heç kimi nəsihət etməyim.”

Bunu deyib getdim və bir daha onun yanına qayıtmadım.[2]

Nuhun qarğışı ilə bir çoxu tufanda batdı və Cəhənnəmə getdi. Tufan sakitləşəndən sonra yanına gedib dedim: “Sənə nəsihət etmək istəyirəm.”

Nuh ehtiyat edib mənimlə həmsöhbət olmadı. Vəhy nidası ona bu icazəni verəndən sonra dedim: “Ey Nuh! Paxıl, açgöz, zalım və tələsənlərdən olma, çünki belə kəsləri top kimi o yan, bu yana tullayıram.”[3]

Bir dəfə onunla görüşümdə dedim ki, üç yerdə məni yad etsin. Çünki orda bəni-Adəmə daha

---

[1] Biharul-ənvar, c. 60, səh. 280-281.
[2] Biharul-ənvar, c. 60, səh. 224.
[3] Biharul-ənvar, c. 69, səh. 195.

yaxınam: “Qəzəb zamanı, iki nəfər arasında hakimlik və naməhrəm qadınla tək qalanda.”[1]

Dünyanın padşahlığını öhdəsinə alan Süleyman haqqında maraqlı cərəyanı zikr edə bilərəm. Belə ki, bir gün Süleyman üçün məcburi işləyən, daş daşımaqla məşğul olan şeytanlar yanıma gəlib çox əziyyət çəkdiklərindən mənə şikayət etdilər. Onlara ürək-dirək verib dedim: “Heç olmasa, qayıdanda bir şey daşımırsınız və rahatsınız.” Külək bu xəbəri Süleymanın qulağına çatdırdı. O da şeytanların qayıdanda gil daşımalarını əmr etdi. Sonrakı görüşdə şikayət etdilər ki, halımız yoxdur. Onlara dedim: “Narahat olmayın, axşamlar istirahət edirsiniz. Bu da bir qənimətdir.”

Külək yenə də bu xəbəri Süleymanın qulağına çatdırdı. O da onların gecə işləməklərinə fərman verdi.[2] Beləliklə, şeytanların işi daha da çətinləşdi.

İbrahim və İsmailin əhvalatı isə belə baş verdi. İbrahim öz öğlu İsmaili qurbangaha aparanda onu bu işdən çəkindirmək üçün yaxınlaşıb dedim: “Nə üçün gözəl cavanını öldürürsən?” İbrahim dedi: “Bu işi Allahım yuxuda mənə əmr etmişdir.” Dedim: “Bu yuxunun təsiri yoxdur və şeytani yuxudur.” İbrahim məni tanıyıb dedi: “Sən şeytansan və bütün əyriliklər səndəndir.”

İbrahim bu sözdən sonra mənə yeddi daş atdı və mən də məcbur olub gözdən itdim.[3]

---

[1] Səfinətul-bihar, c. 1, بلس maddəsi və Təfsire nemune, c. 6, səh. 139-140.

[2] Vajehaye Quran, səh. 155.

[3] Şeytan dər kəminqah, səh. 245.

Sonra İsmailin yanına gəlib ona dedim: “Atan səni öldürmək üçün aparır.” İsmail dedi: “Yox, o bu işi görməz.” Dedim: “Allahı ona dediyi üçün belə edir.” İsmail cavabımda qətiyyətlə dedi: “Elədirsə, onda lap yaxşı.”[1]

Ordan Hacərin yanına gedib dedim ki, “İbrahim Allahının əmri ilə sənin gözəl oğlunu öldürmək istəyir.” Hacər mənim şeytan olduğumu bilib belə cavab verdi: “Əgər Allah deyibsə, mən də razıyam.” Sonra qapını üzümə çırpdı.[2]

Bir gün Cərcis Peyğəmbər mənə moizə edərək dedi: “Haqqın nə olduğunu bilə-bilə niyə camaatı azdırırsan?” Cavabında dedim: “Əgər bütün dünyanı və içindəkiləri mənə versələr ki, azdırmaqdan əl çəkim, heç vaxt qəbul etmərəm. Çünki bir nəfəri azdırmağın ləzzətini bütün dünyanın ləzzətinə dəyişmərəm.”[3]

İsa haqqında bunu demək istərdim: Onu qürurlandırmaq məqsədilə yanına gedib dedim: “Sən Allahın atasız yaratdığı böyük məxluqsan.” Dedi: “Bu Allahın əzəmətindəndir.” Dedim: “Sən körpəliyində dil açan böyüksən.” O: “Məni dilə gətirən Allah Böyükdür.” Dedim: “Sən elə bir məqama çatmısan ki, xəstələri sağaldıb gildən düzələn quşları uçurdursan.” Dedi: “Böyüklük Allaha məxsusdur. Onun izni ilə sağaldıram və Onun qüdrəti ilə uçuş baş verir”.

Bir gün də dağın başında İsa ilə görüşüb dedim: “Özünü dağdan at, əgər doğru deyirsənsə, Allah Səni

---

[1] Şeytan dər kəminqah, səh. 247.
[2] Şeytan dər kəminqah, səh. 242.
[3] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

qoruyar." Dedi: "Bəndənin Allahını imtahan etməsi layiqli iş deyil. Bu işə layiq yalnız Allahdır və bəndələrini imtahan edən məhz Odur."[1]

Amma sizin Peyğəmbərinizə gəlincə...

**Mənim məqsədim bu barədə ayrıca sual vermək idi, çünki İslam Peyğəmbəri (salləllahu ələyhi və alihi və səlləm) haqqında daha da geniş söhbət etməyini istəyirik!**

Eybi yoxdur. Əvvəlcə bir nöqtəni nəzərə çatdırım ki, Peyğəmbərin cəddi Haşim, Səlma ilə evlənmək istəyəndə mən neçə dəfə insan surətində gəlib işləri qarışdırırdım ki, bu evlənmək alınmasın, amma təəssüflər olsun ki, işim baş tutmadı[2].

İslam Peyğəmbəri dünyaya gəldikdə mühüm hadisənin baş verdiyini anladım. Əlimin altında olanlara xəbər verdim ki, axtarış aparsınlar. Onlar bir şey tapa bilmədikləri üçün özüm axtarışa başladım və nəhayət, çox sayda mələklərin bir hərəmi əhatəyə aldıqlarını gördüm. Daxil olmaq istədim, amma icazə vermədilər. Sərçə formasına düşdüm ki, nüfuz edə bilim, amma onlar başa düşüb məni qaytardılar. Bu mətləbi bilmək üçün mələklərin rəisi olan Cəbraildən hadisənin nə olduğunu soruşdum. Dedi: "Allahın ən üstün Peyğəmbəri Muhəmməd anadan olub."

Hər bir insanın azğınlıq yolunu nəzərə aldığım üçün soruşdum: "Ona təsir edə bilərəm?" Dedi:

[1] Biharul-ənvar, c. 60, səh. 252.
[2] Həyatul-qulub, c. 1, səh. 401.

“Yox.” Dedim: “Onun ümmətinə necə?” Dedi: “Bəli.” Bu xəbəri eşitdikdə çox sevindim.[1]

Onun hörmətinə xatir mələklər məni qırx gün bir qalada həbs etdilər. Peyğəmbərin anadan olması ilə məni asimana yaxın buraxmadılar və əlbəttə ki, bu mənim zərərimə idi. Halbuki, İsa dünyaya gələndə asimanın dördüncü qatından yuxarı getməyə haqqım yox idi.[2]

Zaman keçdi və O, peyğəmbərliyə yetişdi. Bu xəbəri eşidəndə çox narahat oldum və şiddətli bir nalə çəkdim.[3] Mən artıq çox məyus olmuşdum. Ona görə də əlimdən gələni etməli idim. İlahi vəhyin Peyğəmbərə xitabını izləyib ona girişərək, dəyişməyinə çalışırdım. Amma etiraf edirəm ki, vəhyin nazil olmasından başlayaraq, Peyğəmbərə çatıb Onun qəlbində yerləşənə və eşidənlərin qulağına çatmasına qədər heç bir dəyişiklik edə bilmədim.[4]

Verilmiş suala aid söhbətimdən biri də budur ki, bir gün Peyğəmbər meracdan qayıdandan sonra yanına gedib dedim: “Sən asimanın dördüncü qatında sol tərəfdə (Beytul məmurda)[5] yanmış, qırılmış və uçulmuş minbəri yəqin ki, görmüsən. O minbər bir vaxtlar mənim idi və onda oturub mələklərə moizə edirdim.”

---

[1] Həyatul-qulub, c. 2, səh. 72.
[2] Həyatul-qulub, c. 2, səh. 74.
[3] Həyatul-qulub, c. 2, səh. 72.
[4] Şuəra surəsinin 210-212-ci ayələrindən seçmələr.
[5] Asimanın dördüncü qatında olan bir məscidin adıdır. İmam Əli **(əleyhissalam)** buyurur: “Mələklərin asimanda ona ehtiram göstərməsi, yer üzündəki Kəbəyə olan ehtirama bərabərdir.”

Bu söhbətdən sonra bir gün Peyğəmbərə xitab edərək dedim: "Ey Muhəmməd! Məğrur və təkəbbürlü olma.[1] Bu xasiyyət məni əzəmət qülləsindən zillətə saldı".

Sonuncu söhbət olaraq deyə bilərəm ki, bir gün Peyğəmbər məndən istədi ki, yaxşılığın ən pis düşməni olan sədəqənin faydaları haqqında danışım. Mən də heç nə gizlətmədən dedim: "Sədəqənin bir neçə xüsusiyyəti var: O cümlədən, malın çoxalmasına, qəflətdən baş verən ölümlərin qarşısının alınmasına, yoxsulluğun aradan getməsinə, insanın sağlamlığına və Cəhənnəmin qarşısında bir divar olmasına səbəbdir."[2]

Bu nöqtə yadımdan çıxmamış deyim ki, İslam Peyğəmbəri dünyasını dəyişəndə Əli ibn Əbitalib Ona qüsl verməklə məşğul idi. Mən dində bidət qoymaq üçün fəryad çəkib dedim: "Peyğəmbər pak olduğu üçün Ona qüsl verilməməlidir." Amma Əli ibn Əbitalib dedi: "Kəs səsini, ey Allahın düşməni, Peyğəmbər Özü mənə əmr etdi ki, Ona qüsl verim. Bu bir sünnətdir."[3]

**Həzrət Adəm (əleyhissalam) Allahın birinci Peyğəmbəri (salləllahu ələyhi və alihi və səlləm) idi və ən səs-küylü hadisə, ikinizin aranızda olan hadisələrdir. Bu cərəyanlar ardıcıl surətdə necə baş vermişdir**?

---

[1] Xəzinətul-cəvahir, səh. 646.
[2] Siracul-qulub, səh. 97.
[3] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

Bəli, unutmayın ki, mənim azğınlığımın başlanğıcı və Allah dərgahından qovulmağıma səbəb məhz Adəmin yaranışı oldu. İndiyə qədər bu barədə az-çox bəyan etmişəm. Çalışaram ki, əsas cərəyanlara da işarə edim. Deməli, Allah Adəmə səcdə etməyi əmr etdiyi zaman əvvəldə dediyim səbəblərə görə bu işdən boyun qaçırtdım.[1] Nəticəsi də Allahın məni Öz dərgahından qovması və əbədi nifrətə düçar etməsi oldu.[2] Bunun ardınca aralarında hörmət qazandığım mələklərin də nifrət və lənətlərinə düçar oldum.

Allahdan möhlət alandan[3] sonra Adəm övladlarından intiqam almaq üçün iradəmi daha da möhkəmləndirdim.[4]

Bir müddətdən sonra Allah Adəm və Həvvanı Cənnətə daxil edib[5] onlara dedi: "İstədiyinizi yeyin, amma bu ağaca yaxın durmayın və ondan yeməyin, yoxsa zalımlardan olarsınız."[6] Çətinliklə olsa belə, özümü Cənnətə daxil etdim və onları azdırmaq fürsətini qənimət bilib dedim: "Allahın nəhy etdiyi bu ağacdan yesəniz, ya mələk olarsınız, ya da əbədi ömür taparsınız."[7] Sözümə inanmaqları üçün and içdim ki, mən sizin xeyrinizi istəyirəm[8].

---

[1] Bəqərə surəsi, ayə 34.
[2] Hicr surəsi, ayə 34-35.
[3] Hicr surəsi, ayə 37-38.
[4] İsra surəsi, ayə 62.
[5] Cənnət dedikdə, məqsəd bu dünyanın bağlarından biri nəzərdə tutulur. Təfsire nemune, c. 6, səh 124.
[6] Bəqərə surəsi, ayə 35.
[7] Əraf surəsi, ayə 20.
[8] Əraf surəsi, ayə 21.

Nəhayət, vəsvəsəm baş tutdu və onlar həmin ağacdan yedilər. Allah xitab etdi: “Məgər Mən sizi bu ağacdan yeməyə çəkindirmədim və şeytanın sizin düşməniniz olmasını demədim?”[1]

Amma iş-işdən keçmişdi. Mən həm Ondan və həm də Onun həyat yoldaşından birinci intiqamımı aldım. Bu intiqam o zaman kamilləşdi ki, “Onlar fərmandan boyun qaçırdıqları üçün məcbur olub Cənnətdən çıxdılar.”[2]

Bu aldatmağın ləzzətini heç vaxt unutmayacağam. Ona görə də insanları aldatmaqda qəribə bir hərisliyim var. Ümumiyyətlə, mən and içmişəm ki, az bir qismdən başqa yerdə qalan insanları azdıram.[3]

Əlbəttə, Allah insanları xəbərdar edib ki, “Ey Adəm övladları, şeytan ata-ananızı aldadıb Cənnətdən çıxararaq, libaslarını bədənlərindən soyundurduğu kimi sizi də aldatmasın.[4] Amma mən işimi daha da şiddətli sürətdə davam edirəm və təcrübələrimə əsaslanaraq inanıram ki, bəni Adəmin çoxu mənim ardımca gələcəklər və həmçinin inanıram ki, bu insan öz ata-anasından ibrət alan deyil.[5]

Bu hadisələrin hamısı o zaman idi ki, Adəmlə Həvva haram yox, “tərki-əvla” (üstün bir əməli tərk edib ondan aşağı olanını yerinə yetirmək) etdilər.[6] Sonra tövbə etdilər və Allah da tövbələrini qəbul etdi.

---

[1] Əraf surəsi, ayə 22.
[2] Bəqərə surəsi, ayə 36 və Əraf surəsi, ayə 23.
[3] İsra surəsi, 62 və Sad surəsi, ayə 82.
[4] Əraf surəsi, ayə 27.
[5] Nəhcul-bəlağə, hikmət 297.
[6] Təfsire nemune, c. 6, səh 125.

**Bəzi Peyğəmbərlər (ələyhimussalam) haqqında danışdın. Muhəmmədın (salləllahu ələyhi və alihi və səlləm) Əhli-beytindən (ələyhimussalam) bir sözün, söhbətin, xatirən, yaxud hər hansı bir mətləbin varsa, oxucularımız üçün açıqlamaq istəyirsənmi**?

Bəli, əlbəttə ki, deyəcəyim mətləblər var. Əvvəl Əli ibn əbi Talibdən başlayım. Mən yox ikən Onun nuru yarandı və bütün mələklər səcdəyə düşdülər.[1]

Bir gün qoca kişi formasında Peyğəmbər və Əlinin yanından salamlaşıb keçirdim. Eşitdim ki, Əli məni öldürmək arzusundadır. Qayıdıb Ona dedim: "Ey Əli! Mənim haqqımda zülm etdin, çünki mən, Səni sevənin nütfəsində iştirak etmirəm."[2]

Qədir-Xumda, yəni Peyğəmbər Əlini Öz canişini seçdiyi gün şeytanların əksəriyyəti öz başlarına kül töküb dedilər: "Qiyamət gününə qədər açılmayan bir düyün bağlandı." Mən onlara ürək-dirək verib dedim ki, siz düşündüyünüz kimi deyil. Bu camaatın bir qrupu mənə ümid bəxş edən vədələr veriblər[3].

Əgər bu ailədən danışmaq istəsəm, söhbətim uzun çəkəcək. Amma gizlədə bilmədiyim mətləb bundan ibarətdir ki, Əhli-beytin dünyaya gəlmələrinə çox narahatam. Çünki mənim qarşımda hidayət bayrağını əllərinə alıblar. Digər tərəfdən isə Onların ölümünə razı deyiləm, çünki Qiyamətin tez çatmasına və bizim

---

[1] Biharul-ənvar, c. 60, səh. 237.
[2] Biharul-ənvar, c. 18, səh. 88.
[3] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

Cəhənnəmə düşməyimizin tezləşməsinə səbəb olur.[1] İnsanları hidayət etmək vəzifəsi boyunlarında olduğu üçün Onlara həddindən artıq kin-küdurətim var və Onları ən qatı düşmənim hesab edirəm. Buna görə də şeytanlara əmr etmişəm ki, azdırıcı işlər görməklə camaatı bu ailədən uzaqlaşdırıb Onlara düşmən olsunlar.[2] Çünki bu ailə ilə dostluq və Onlara itaət, Cənnəti zəmanət edir. İş o yerdədir ki, hətta mən belə Onların şəfaətinə tamah etmişəm.

Bir dəfə tək olanda öz-özümə edim: "Allahım, əgər məni atəşə atsan, onda Səni Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseynin haqqına and verib çağıraram ki, məni atəşə atmayasan və Onlarla məhşur edəsən."

Bu zaman cin tayfasından olan müsəlman bir qadın gəlib məndən soruşdu: "Sən bu adları hardan öyrənmisən?" Ona dedim ki, yeddi min il Adəm yaranmamışdan qabaq bu adları "Ərş"də gördüm və Allahın yanında ən üstün məxluq olduqlarını anladım.[3]"

Bununla belə, mənim Əhli-beytin fəzilətlərini eşitməyə taqətim yoxdur, yoxdur, yoxdur.[4]

**Şeytanpərəstlər haqqında nə bilirsən**?

Bir qrup mənim mücəssəməmi düzəldib ona ibadət edirlər. Bu işlərinin səbəbi məbudlarını bütün ləzzətləri halal sayan və həyatı yalnız xoşluqda görən biri kimi tanımaqlarıdır. Bunların bir qrupu

---

[1] Biharul-ənvar, c. 60, səh. 249.
[2] Rəyahinuş-şəriət, c. 3, səh. 65.
[3] Biharul-ənvar, c. 60, səh. 216 və c. 91, səh. 20..
[4] Səfinətul-bihar, c. 1, بلس maddəsi.

Nyuyorkda yaşayırlar.[1] "Yəzidiyyə" adında bir qrup da mənə ibadət edir və mənim Allah ilə sülh edəcəyimə inamları vardır. Razı olduğum bu nadanlar Peyğəmbərlərdən daha çox mənə inanırlar. Onların bir iddəsi Suriyanın iki kəndində sakindilər.[2] Lakin onların məskunlaşdığı əsas yer İraqın "Mosul" şəhərinin ətrafındadır. Xoşbəxtlikdən onlar İranda (Kermanşah şəhərində) və Ermənistanda başqa adlarla mövcuddurlar.[3]

Zənnimcə mənim və dostlarımın vəsvəsələrini qəbul edənlər mücəssəməmin qarşısında ibadət etməmələrinə baxmayaraq, həqiqi şeytanpərəstdirlər. Tarix boyu bir sıra qruplar məni günahdan çəkindirmək istəmiş, lakin heç vaxt buna nail ola bilməmişlər.[4]

**Yəqin ki, "böyük şeytan"ın adını eşitmisən. Bu barədə nəzərin nədir**?

Allahın əzəmətli bəndələrindən biri[5] Amerikanı böyük şeytan adlandırıb. Şeytanpərəstlər onların məbudlarına hörmətsizlik olunduğunu eşidəndə çox narahat oldular.[6] Amma fəxr edirəm ki, insanların arasında elələrini tərbiyə etmişəm ki, sanki məni ötüb keçiblər.

---

[1] Vajehaye Qoran, səh. 157.
[2] İlamul Quran, səh. 86.
[3] Çohreye şeytan dər Qoran, səh. 98.
[4] Dairatul-məarif, c. 2, səh. 600.
[5] Mərhum Ayətullah seyyid Ruhullah Xumeyni.
[6] Vajehaye Qoran, səh. 156.

**Allahı qəbul etməyini və Onun fərmanından boyun qaçırmağına etiraf edirsən. Həmçinin milyonlarla insanı vəsvəsə edərək, düz yoldan azdırmısan. Günahlarından tövbə etmək fikrin varmı?**

Mən həmişə öz gələcəyimdən nigaran olmuşam. Xüsusilə, Allahın məni Cəhənnəmə atacağını eşitdikdə, çox narahat oldum. İstəyirəm ki, Allah Öz rəhməti vasitəsi ilə məni Cənnətə daxil etsin. Amma məsələ burasındadır ki, tövbə - qəlbən peşiman olmaq mənasındadır və mənim tövbə etməyimin şərti budur ki, keçmişdə etdiyim bütün günahların əvəzini çıxım. Bir dəfə tövbədən söhbət düşəndə Allah Yəhyaya vəhy etdi ki, İblisə de ki, əgər düz danışırsa, Adəmin qəbri üstünə gedib ona səcdə etsin. Mən isə cavabında belə dedim: “Adəmin izzətli vaxtında bu işi görmədim, indi ki, torpaq altındadır, heç vaxt bu işi görmərəm.”

Ona görə də mənim tövbəmin şərti Adəmə səcdə etməkdədir və mən heç vaxt bunu etmərəm. Hər halda mən də Cəhənnəm atəşindən qorxuram və bəzən bağışlanmağın fikrinə düşürəm. Belə ki, bir gün qoca kişi simasında İslam Peyğəmbərinin yanına getdim. Əli ibn Əbi Talib də orda idi. Peyğəmbərdən istədim ki, Allahdan mənim bağışlanmağımı istəsin. Lakin O, belə cavab verdei: “Sənin əməllərin aradan gedib.”

**Yaxşı olar ki, öz ölümündən danışasan. Nə vaxt və necə öləcyini bilirsənmi?**

Əvvəldə dediyim kimi mən Allahdan diri qalmağım üçün möhlət aldım[1]. Mənim möhlətim sona çatandan sonra Allah ölüm mələklərinin başçısı olan Əzrailə mənim canımı almaq üçün fərman verəcək. Hamısından pisi budur ki, Allah Əzrailə əmr edəcək ki, birinci insandan sonuncu insanlara kimi dadızdırdığı bütün çətinlikləri, acılıqları və can vermənin əzabını mənə də dadızdırsın.[2]

Onu da deyim ki, dəfələrlə bizimlə mələklər arasındakı çarpışmalarda və döyüşlərdə ölüm sərhəddinə qədər getmişəm, amma hər dəfə Allahdan möhlət aldığım üçün canımı qurtarmışam[3].

**Səndən bir istəyim var. Ola bilsin, təəccüb edəsən. Azğın olmağına baxmayaraq, bir elm bilicisi kimi biz insanlara nəsihət ver! Bəzən hətta düşmənin məsləhəti belə, işə yarayır.**

Dediyim kimi Peyğəmbərlərlə görüşümdə açıqladığım sözlər sizin üçün nəsihət ola bilər. Amma bununla belə bir neçə nöqtəni bəyan etmək istəyirəm:

Biri budur ki, şeytanla "bir qəribənin sürünü qoruyan iti ilə qarşılaşması" kimi olun, çünki it sizə hücum etdiyi zaman onun sahibinə pənah aparırsınız. Deməli, amanda qalmaq üçün bizim şərrimizdən Pərvərdigarımız olan Allaha pənah aparın![4] Əlbəttə ki, Allah Öz bəndələrinə bu əmri vermişdir.[5]

---

[1] Hicr surəsi, ayə 36-37.
[2] Şeytan dər kəminqah, səh. 158.
[3] Biharul-ənvar, c. 91, səh. 12.
[4] Səfinətul-bihar, c. 8, وسوس maddəsi.
[5] Əraf surəsi, ayə 200 və Muminin surəsi, ayə 97.

İkincisi budur ki, dünyada sizə əta olunan hər şeyə qane olun! Axirətdə əbədi səadətə yetişmək üçün Əli ibn Əbi Talibə məhəbbət bəsləyib Onun ardınca gedin və düşmənləri ilə düşmən olun!

Yeddi qat səmalarda Allaha ibadət etdim, yeddi qat yer üzündə günah etdim və hər yerdə Əli vasitəsi ilə Allaha yaxın olan mələk və Peyğəmbərlərdən başqa birisini görmədim[1].

**Sən bu müsahibədə insanları nəsihət etdin. Elə şeylər dedin ki, moizə edənlər həmişə xalqın qulağına çatdırırlar. Bu söhbətlərdən sonra peşman olacağını düşünmürsənmi?**

Heç də belə deyil. Sizləri inandırıram ki, nəfsi istəklərin və dünyanın gözəl çöhrəsinin köməyi ilə Allahın ixlaslı bəndələrindən başqa hamını aldadarıq. Və bunu heç kimdən də gizlətmirik.[2] Əgər Allahın rəhməti bəndələrinin üstündə olmasaydı, mən və dostlarım hamını Cəhənnəmlik edərdik. Mən insanların çoxuna təəccüb edib gülürəm. Çünki, onlar bir tərəfdən Allaha itaəti iddia edir, amma Onun fərmanlarından boyun qaçırırlar. Digər tərəfdən isə məni özlərinin düşməni bilir, amma əslində mənə itaət edirlər.

Bəni Adəm çox moizə eşidib və daima eşitməkdədir. O, həmişə öz həmnövlərindən bir çox hadisələr və xeyirsiz aqibətlər görür, lakin yenə də ibrət almır və mənim yoluma tərəf gəlir. Sizin böyük

---

[1] Biharul-ənvar, c. 60, səh. 253.
[2] Hicr surəsi, ayə 40.

şəxsiyyətinizin[1] dediyi kimi "ibrətlər saysız, ibrət alanlar isə az."

**Bu çətin müsahibədə şeytanın aldadıcı yollarını açıqlaya bildiyimə görə çox sevinirəm və ümid edirəm ki, mənim kimi başqaları da ibrət alsın və müsahibə etdiyim anlarda şeytanın şərrindən qorunduğuma görə sevinc hissi keçirirəm**.

Yanılırsan. Hardan məlumdur ki, bu müsahibəni mən təşkil etməmişəm? Bu kitabı yazmaqla sənin qürur hiss etməyin mənə kifayət edər. Sizi azdırmaq üçün həmişə çalışıram ki, istəyimə çatım. Əgər birini Cəhənnəmlik edə bilməsəm, öz proqramlarım vasitəsilə Cənnətin yuxarı dərəcələrindən aşağı salmağa çalışıram. Səncə bu şeytani müvəffəqiyyət deyilmi?

Əgər sənin kimi zəif insanlar məndən söz alsalar və mən də onlara mənfi təsir qoya bilməsəm, onda gərək dükanımı yığışdırım. Elə isə çox da sevinmə!

**Vay mənim halıma! Vay, vay, vay!**

[1] Həzrət Əli **(əleyhissalam).**

## *XƏBƏRDARLIQ*

وَاسْتَفْزِزْ مَنِ اسْتَطَعْتَ مِنْهُمْ بِصَوْتِكَ وَأَجْلِبْ عَلَيْهِم بِخَيْلِكَ وَرَجِلِكَ وَشَارِكْهُمْ فِي الأَمْوَالِ وَالأَوْلادِ وَعِدْهُمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا

«Və onlardan bacardığın kəsi öz səsinlə (günaha tərəf) təhrik et və öz süvarilərin və piyadaların ilə onların üzərinə fəryad qopar! Onların mallarına və övladlarına şərik ol və (hər bir vacibin tərk olunmasında və hər bir haramın yerinə yetirilməsində) onlara vəd ver! (Onlar bilməlidirlər ki,) Şeytan onlara yalan və hiylədən başqa əsla bir vədə vermir.»[1]

وَيُرِيدُ الشَّيْطَانُ أَن يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا

«Şeytan onları uzun-uzadı bir zəlalətlə azdırmaq istəyir.»[2]

يَعِدُهُمْ وَيُمَنِّيهِمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا

«Şeytan onlara vədə verir və arzulara daldırır. Şeytan onlara aldadıcı vəddən başqa bir şey vermir.»[3]

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَن يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَن ذِكْرِ اللّهِ وَعَنِ الصَّلاَةِ فَهَلْ أَنتُم مُّنتَهُونَ

«Həqiqətən Şeytan şərab və qumarla aranıza kin-küdurət salmaq, həmçinin sizi Allahın zikrindən və namazdan saxlamaq istəyir. Belə isə əl çəkəcəksinizmi?»[4]

---

[1] İsra surəsi, ayə 64.
[2] Nisa surəsi, ayə 60.
[3] Nisa surəsi, ayə 120.
[4] Maidə surəsi, ayə 91.

يَا بَنِي آدَمَ لاَ يَفْتِنَنَّكُمُ الشَّيْطَانُ كَمَا أَخْرَجَ أَبَوَيْكُم مِّنَ الْجَنَّةِ يَنزِعُ عَنْهُمَا لِبَاسَهُمَا لِيُرِيَهُمَا سَوْءَاتِهِمَا إِنَّهُ يَرَاكُمْ هُوَ وَقَبِيلُهُ مِنْ حَيْثُ لاَ تَرَوْنَهُمْ إِنَّا جَعَلْنَا الشَّيَاطِينَ أَوْلِيَاء لِلَّذِينَ لاَ يُؤْمِنُونَ

«Ey Adəm övladları, məbada Şeytan ata və ananızı Cənnətdən çıxartdığı - belə ki, ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını əyinlərindən çıxardığı - kimi sizi (də) aldatsın və azdırsın! Şübhəsiz, o və onun qəbiləsi sizi, sizin onları görə bilmədiyiniz yerdən görürlər. Əlbəttə, Biz Şeytanları imanı olmayan kəslərin başçıları etmişik.»[1]

وَقَالَ الشَّيْطَانُ لَمَّا قُضِيَ الأَمْرُ إِنَّ اللّهَ وَعَدَكُمْ وَعْدَ الْحَقِّ وَوَعَدتُّكُمْ فَأَخْلَفْتُكُمْ وَمَا كَانَ لِيَ عَلَيْكُم مِّن سُلْطَانٍ إِلاَّ أَن دَعَوْتُكُمْ فَاسْتَجَبْتُمْ لِي فَلاَ تَلُومُونِي وَلُومُواْ أَنفُسَكُم مَّا أَنَاْ بِمُصْرِخِكُمْ وَمَا أَنتُمْ بِمُصْرِخِيَّ إِنِّي كَفَرْتُ بِمَآ أَشْرَكْتُمُونِ مِن قَبْلُ إِنَّ الظَّالِمِينَ لَهُمْ عَذَابٌ أَلِيمٌ

«(Qiyamət günü) Şeytan deyər: Həqiqətən, Allah sizə haqq vəd verdi Və mən də sizə vəd verdim, lakin vədimə xilaf çıxdım. Mənim (dünyada) sizin üzərinizdə, sizi dəvət etməkdən başqa heç bir hökmranlığım yox idi və siz (də) mənim dəvətimi qəbul etdiniz. Odur ki, məni məzəmmət etməyin, özünüzü məzəmmət edin! İndi nə mən sizin dadınıza yetişənəm və nə (də) siz mənim dadıma yetişənsiniz. Mən bundan qabaq məni itaətdə Allaha şərik qoşmağınıza kafirəm. Həqiqətən, zalımlar üçün ağrılı bir əzab vardır.»[2]

---

[1] Əraf surəsi, ayə 27.
[2] İbrahim surəsi, ayə 22.

وَالَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ رِئَـاء النَّاسِ وَلاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَمَن يَكُنِ الشَّيْطَانُ لَهُ قَرِينًا فَسَاء قِرِينًا

«Mallarını riya və camaata göstərmək xatirinə xərcləyənlər Allaha və Axirət gününə imanları yoxdur. Onların həmdəmi olan Şeytan çox pis bir həmdəmdir.»[1]

تَاللّهِ لَقَدْ أَرْسَلْنَا إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَهُوَ وَلِيُّهُمُ الْيَوْمَ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

«Allaha and olsun ki, (yəhudilər, xaçpərəstlər və başqaları kimi) səndən qabaqkı ümmətlərə (də peyğəmbərlər) göndərmişdik. Şeytan onların (puç batil) işlərini onlar üçün zinətləndirdi və o, bu gün də onların (və digər kafirlərin və müşriklərin) yardımçı və başçısıdır. Onlar üçün ağrılı bir əzab vardır.»[2]

وَكَانَ الشَّيْطَانُ لِلْإِنسَانِ خَذُولًا

«Şeytan insanı həmişə xar edib və (indi də) edir.»[3]

وَعَادًا وَثَمُودَ وَقَد تَّبَيَّنَ لَكُم مِّن مَّسَاكِنِهِمْ وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ وَكَانُوا مُسْتَبْصِرِينَ

«Ad və Səmud qövmünü də (məhv etdik) və onların (viran olmuş) məskənlərindən (pis aqibətləri) sizə bəlli oldu. Şeytan onların (çirkin) əməllərini nəzərlərində zinətləndirdi, beləliklə də onları (Allahın) yol(un)dan saxladı. Halbuki bundan öncə

---

[1] Nisa surəsi, ayə 38.
[2] Nəhl surəsi, ayə 63.
[3] Furqan surəsi, ayə 29.

(tovhid və din barədə) bəsirət əhli idilər.»[1]

إِنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ فَاتَّخِذُوهُ عَدُوًّا إِنَّمَا يَدْعُو حِزْبَهُ لِيَكُونُوا مِنْ أَصْحَابِ السَّعِيرِ

«Həqiqətən, Şeytan sizin düşməninizdir, belə isə onu (özünüzə) düşmən bilin! Doğrudan da o, öz dəstəsini (ona uyanları) Cəhənnəmin alovlu odunun əhlindən olmağa dəvət edir.»[2]

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

«Ey Adəm övladı, məgər Mən sizə buyurmadımmı ki: Şeytana ibadət etməyin! Şübhəsiz, o sizin açıq – aşkar düşməninizdir.»[3]

اسْتَحْوَذَ عَلَيْهِمُ الشَّيْطَانُ فَأَنسَاهُمْ ذِكْرَ اللَّهِ أُوْلَئِكَ حِزْبُ الشَّيْطَانِ أَلَا إِنَّ حِزْبَ الشَّيْطَانِ هُمُ الْخَاسِرُونَ

«Şeytan onlara hakim olub Allahı yad etməyi onlara unutdurmuşdur. Onlar Şeytanın firqəsidirlər. Agah ol, həqiqətən ziyankarlar məhz Şeytan firqəsidır.»[4]

وَمَن يَعْشُ عَن ذِكْرِ الرَّحْمَنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ

«Kim (nəfsi istəklərlə məşğul olaraq) Rəhman Allahı yada salmağa göz yumsa, ona həmişə (vəsvəsə etmək və azdırmaq üçün) yoldaş və yaxın dost olan bir şeytan qoşarıq.»[5]

---

[1] Ənkəbut surəsi, ayə 38.
[2] Fatir surəsi, ayə 6.
[3] Yasin surəsi, ayə 60.
[4] Mucadilə surəsi, ayə 19.
[5] Zuxruf surəsi, ayə 36.

فَوَرَبِّكَ لَنَحْشُرَنَّهُمْ وَالشَّيَاطِينَ ثُمَّ لَنُحْضِرَنَّهُمْ حَوْلَ جَهَنَّمَ جِثِيًّا

«Buna görə də and olsun Rəbbinə ki, şübhəsiz, onları şeytanları ilə (birlikdə Məhşər səhnəsinə) toplayacaq, sonra isə (əzabın çoxluğundan) diz çökdükləri halda dəstə-dəstə Cəhənnəmin dövrəsinə gətirəcəyik.»[1]

فَرِيقًا هَدَى وَفَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلاَلَةُ إِنَّهُمُ اتَّخَذُوا الشَّيَاطِينَ أَوْلِيَاء مِن دُونِ اللّهِ وَيَحْسَبُونَ أَنَّهُم مُّهْتَدُونَ

«(Sizin qayıdışınız elə bir haldadır ki, Allah) bir dəstəni hidayət etmiş, bir dəstə üçün isə zəlalət gerçəkləşmişdir. Çünki, (zəlalətə düşənlər) Allahın yerinə şeytanları özlərinə başçı və yardımçı götürdülər və onlar doğru yolda olmalarını güman edirlər.»[2]

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

«Ey iman gətirənlər, hamılıqla (Allaha) təslim və itaətə daxil olun və şeytanın addımlarına tabe olmayın ki, həqiqətən, o sizin aşkar düşməninizdir.»[3]

وَإِمَّا يَنزَغَنَّكَ مِنَ الشَّيْطَانِ نَزْغٌ فَاسْتَعِذْ بِاللّهِ إِنَّهُ سَمِيعٌ عَلِيمٌ

«Əgər Şeytan tərəfindən təhrikedici bir vəsvəsə səni təhrik etsə, Allaha pənah apar, çünki O, Eşidən və Biləndir.»[4]

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

---

[1] Məryəm surəsi, ayə 68.
[2] Əraf surəsi, ayə 30.
[3] Bəqərə surəsi, ayə 208.
[4] Əraf surəsi, ayə 200.

«Quran oxuyan zaman qovulmuş Şeytandan Allaha pənah apar.»[1]

**وَأَعُوذُ بِكَ رَبِّ أَن يَحْضُرُونِ وَقُل رَّبِّ أَعُوذُ بِكَ مِنْ هَمَزَاتِ الشَّيَاطِينِ**

«Və de: Ey Rəbbim! Şeytanların vəsvəsə və təhriklərindən Sənə pənah gətirirəm. Və onların (namaz halında və ölüm zamanı) mənim yanımda olmalarından Sənə pənah gətirirəm, ey Rəbbim!»[2]

**بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ مَلِكِ النَّاسِ إِلَهِ النَّاسِ**
**الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ مِنَ الْجِنَّةِ وَ النَّاسِ**

«Bağışlayan və Mehriban Allahın adı ilə. De: Pənah aparıram insanların Rəbbinə (yaradılış mərhələsinin əvvəlindən tərbiyə mərhələsinin sonuna qədər onları tərbiyə edənə). İnsanların hökmdarına və (mütləq) hakiminə. İnsanların (həqiqi) məbuduna. Gizlincə vəsvəsə edənin, o irəli – geri çəkilənin şərindən. O, (şeytanın şərindən) ki, insanların ürəklərinə vəsvəsə salır. İstər cinlərdən olsun, istərsə də insanlardan.»[3]

---

[1] Nəhl surəsi, ayə 98.
[2] Muminun surəsi, ayə 97-98.
[3] Nas surəsi.

60*90/16. Бумага офсетная 80г/кв.м. Обложка: 4 полосы, 4+4, мелованная глянцевая 250 г/м2. Печать офсетная. Усл.печ.лист 8,5. Тираж: 2000 экз.

Отпечатано в ООО "Типография КЕМ"
129626, Москва, Графский перю, д. 9, стр. 2

Тел.: (495) 9335900, e-mail: info@akem.ru